Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

67-ci cild

19 aprel 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 165

*Milli Məclisin iclas salonu.*
*19 aprel 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 102 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Vəfa Mütəllimova**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Cavid Bayramov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Vüqar İbrahimov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Hafiz İsmayılbəyli**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Tamerlan Yusif-zadə**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri.

**Gülnar Hacıyeva**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının şöbə müdirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabatı.
2. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
6. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
7. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Veteranlar haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Peşə təhsili haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sahib Alıyev, Razi Nurullayev, Zahid Oruc, Nizami Səfərov, Azər Badamov, Ceyhun Məmmədov, Fəzail Ağamalı, Musa Qasımlı, Bəhruz Məhərrəmov, Etibar Əliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Gülməmmədov, Tahir Mirkişili, Vüqar Bayramov, Kamal Cəfərov,

Bəhruz Məhərrəmov, Vahid Əhmədov, Zahid Oruc, Sadiq Qurbanov, Siyavuş Novruzov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Fatma Yıldırım, Etibar Əliyev

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Tahir Mirkişili, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məlahət İbrahimqızı, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının**

**qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Nurlan Həsənov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**7. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**8. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Ülviyyə Həmzəyeva, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**9. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haq-**

**qında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Tahir Mirkişili, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**10. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Əziz Ələkbərov, Zahid Oruc, Hicran Hüseynova, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Məlahət İbrahimqızı, Vahid Əhmədov, Etibar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**11. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**12. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Əli Hüseynli, İlham Məmmədov, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 8–14-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**13. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**14. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Mirkişili, Tahir Rzayev, Sadiq Qurbanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*19 aprel 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hamınızı xoş gördük, hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlayacağıq.

Hörmətli həmkarlar, gündəlik də paylanıb. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 93
Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Çıxış etmək istəyən varsa, yazılsın. 10 nəfər çıxış eləyə biləcək. Yoxdursa, gündəliyin məsələlərinə keçəcəyik.

Etibar Əliyev sonuncu çıxışçı olacaq. Xahiş edirəm, Fərid müəllim, qalan siyahını oradan silin.

Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən həftə ərzində diqqətimi çəkən bir açıqlama və baş verən iki olay haqqında danışmaq istəyirəm ki, onlardan ən mühümünü sona saxlayıram. Öncə toxunacaqlarım isə bir-biri ilə sıx bağlı və anti-Azərbaycan xarakterlidir. Burada söhbət Fransanın Bakıdakı səfirini geri çağırmasından və bizdəki antimilli ünsürlərin mitinq hazırlığından gedir. Əlbəttə, ilk baxışda belə görünə bilər ki, Azərbaycan Fransanın yeritdiyi yeni müstəmləkəçilik siyasətini və digər bəd əməllərini ifşa edir və bundan qıcıqlanan Fransa dözümsüzlük göstərərək belə bir cılızlığa yol verir. Ancaq fikrimcə, Fransanın buradakı səfirini geri çağırmasının arxasında Qərbin bizim regionda bölücü xətlər çəkmək, dayanıqlı qarşıdurma meydanı yaratmaq yönündə kompleks addımlar atmağı planlaşladıranlara pionerlik etmək niyyəti gizlənir. Aprelin 5-də Brüsseldə keçirilən üçtərəfli görüşdə artıq üzərindən sirr pərdəsi götürülən gizli sövdələşmə də bunu təsdiqləmirmi? O planı hazırlayanlar istədiklərini asan reallaşdırsınlar deyə, bizdəki muzdlu nökərlərindən də faydalanmağa çalışırlar. Mitinq ideyası da ona görə ortaya atılıb. Milli Şuradakılara mitinq keçirməyi tapşıranlar Azərbaycanda

ictimai-siyasi sabitliyə mümkün qədər zərbə vurmaq və dövlətimizə təzyiq üçün əlavə “fakt” əldə etmək niyyəti güdürlər.

Müzəffər Ali Baş Komandanımızı Azərbaycanı Rusiyanın müstəmləkəsinə çevirməkdə suçlandıran, sözügedən ölkənin Qarabağdakı hərbi kontingentinin buradan heç vaxt çıxmayacağını bildirən Əli Kərimli və yandaşları hər halda etdikləri qələtə görə üzr istəmək üçün mitinq planlaşdırmırlar. İtinə “Qızıl” adı qoymaqla varlı görünməyə çalışan kasıbın məntiqi ilə çıxış edərək yığnaqlarını “Milli Şura” adlandıran antimilli ünsürləri yaxşı tanıdığımdan tam əminliklə deyirəm ki, onlar məhz Zəfərimizlə barışmayanların əmri ilə onu gözdən salmağa çalışdıqlarını etiraf etmək əvəzinə, həmin güclərin qanadı altında “miatsum”çuların Qarabağa gətirilmələri tələbini daha həvəslə səsləndirə bilərlər.

Sonda bu yüksək kürsüdən cənab Prezidentə milli maraqlarımızı qətiyyətlə, prinsipiallıqla və səbirlə, bir sözlə, Heydər Əliyevcəsinə reallaşdırdığına, Qarabağı Azərbaycana əbədi qaytardığına görə o regionun bir parçası olan Tərtərin qəhrəman camaatının dərin minnətdarlığını çatdırıram. Bildirmək istəyirəm ki, Qarabağda “miatsum”çuların kökünün kəsilməsi “Dəmir yumruğun”, Rusiya hərbi kontingentinin Azərbaycanı vaxtından əvvəl tərk etməsi isə dəmir iradənin xidmətidir. O iradənin yiyəsinə, uzun əsrlər “parçala, hökm sür!” siyasətinin yeridildiyi Qafqazda dayanıqlı sülh qurucusuna – cənab İlham Əliyevə eşq olsun! Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Şəhər gözəlləşir, infrastruktur yaradılır və insanların rahatlığı üçün xeyli addım atılır. Bu işlərin fonunda yarımçıq tikililər narahatlıq yaradır. Yarımçıq tikililər bütün şəhər ərazisində var, onlar böyük əraziləri tutub və istifadəsiz qalıb. Belə yarımçıq tikililərin olduğu yüzlərcə hektar ərazilərlə bağlı qərar verilmir, yüzlərcə hektar hasarlanmış ərazilərlə bağlı da addımlar atılmır. Bunlar kiminsə əmlakı ola bilər. Amma bu o demək deyil ki, "ərazi mənimdir, özüm bilərəm" olsun. Özümüzü müqayisə etdiyimiz Avropa ölkələrində həyətyanı sahələrdə əkilən qazonun biçilməsi və hündürlüyü ilə də bağlı standartlar var. Yarımçıq tikililər həm də ona görə var ki, hansısa vəzifəli şəxslər, yaxud onlarla bağlı biznesmenlər zamanında tikməyə başlayıb, vəzifədən çıxarılıb, yaxud həbs edilib və biznes imperiyası alt-üst olub. Amma yenə də bu yarımçıq tikililəri illərcə saxlamaq düzgün deyil. Ya onlardan qanuni yollarla alınıb istifadəyə verilsin, ya da özlərinə vaxt qoyulsun ki, tikintini başa çatdırsınlar. Yox, qanunsuzdursa, baş plana uyğun deyilsə, o zaman sökülməsi və ya başqa məqsədlər üçün istifadəsi ilə bağlı da qərarlar verilsin.

Daha bir məsələ. Xanım sədr, müxtəlif nazirliklərin, komitələrin, demək olar ki, əksər dövlət qurumlarının tərkibində tikinti şöbələri var. Bilmirəm, bu, Sovet dövründən qalma ənənədir, yoxsa sonradan yaradılıb. Nazirliklərin, dövlət qurumlarının öz işləri var. Tikinti ilə deyil, birbaşa səlahiyyətləri ilə məşğul olsunlar. Ona görə də təklif edirəm ki, aidiyyətsiz dövlət qurumlarında tikinti şöbələri ləğv edilsin. Ayrıca bir dövlət agentliyi, komitə, nə isə bir dövlət qurumu yaradılsın ki, onlar tikinti ilə məşğul olsunlar. Bu, çox səmərəli bir yanaşma olar və

aidiyyəti dövlət qurumları da tikinti yarışına girib əsas vəzifələrini yaddan çıxarmazlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasına dair iki dövlət rəhbərinin razılaşması mühüm beynəlxalq təhlükəsizlik, hərbi və siyasi hadisədir. Əgər tarixə qayıtsaq, I Pyotrun 1712-ci ildəki qərarından sonra İbrahim xandan Elçibəyə qədər Azərbaycan rəhbərləri hamısı rus orduları ilə müxtəlif formada savaşıblar və kütləvi itkilər vermişik. Dövlətimiz çöküb və qətlə yetirilən, devrilən xanlardan Vəzirovlara qədər, 20 Yanvardan Xocalıya kimi faciəli milli tarix yaratmışıq. Noyabrın 10-da Qarabağ bölgəsinə sülhməramlı qüvvələr yerləşəndə müharibədə bizə məğlub olanlar qələbəmizi ləkələmək üçün "erməni işğalını rus ordusu ilə əvəzlədilər" deyə, kampaniyaya başladılar.

Ukrayna ilə müharibədən sonra dünyada demonlaşdırılan bir dövlətin Xankəndidəki missiyasını ləkələyən NATO dövlətləri azərbaycanlı və rus əsgərlərini toqquşdurmaq istəyirdilər. "Xankəndi rusa verildi, müharibə olmayıb, Əliyev sövdələşmə ilə Elçibəyin çıxardığı ordunu geri qaytardı, heyif Azərbaycan əsgərinə" deyən şərçilər indi də 17 aprel qərarını Rusiyanın Qərbə məğlub olması, Ərdoğanın təzyiqi, hətta Paşinyanın manevrləri ilə bağlayırlar. Sən demə, ruslar "Zvartnos" limanından da çıxıb, özləri bütün Qafqazdan gedirlər. Riyakarlığa baxın, bu mənfur tezisləri yayanların yalnız bir məqsədi var: İlham Əliyevin xalqımızı qırğınlara verməyən, məğlubiyyət ənənələrinə son qoyan ardıcıl və parlaq milli qələbələrini etiraf eləməsinlər.

Dövlətimizin başçısının strateji ağlı və keçmiş rəhbərlərin faciələrini görməsi 1960 nəfərlik qüvvədən

düzgün istifadə etməyə imkan yaratdı. Sentyabrın 20-də bütün dünya erməniçiliyinin qınadığı rus əsgəri onların əvəzinə döyüşmədi. I Pyotrun 300 illik qərarı geri oxundu. O cümlədən sülhməramlılar müstəqilliyimizi buxovlayan xarici hərbi baza deyil, əksinə, Fransa və Amerikanın regionda yerləşməsinə qarşı qüvvə oldu. Ağ Evdə və Yeliseydə rus hərbi qüvvələrinin 366-cı alaya çevrilmədiyindən, bir Qafqaz ölkəsindən sülh, diplomatik razılaşma yolu ilə və qansız-qadasız çıxmasından məyus olublar. Axı, əsrlərdir xalqımızı qonşu dövlətlərlə toqquşdurub özləri Göyçə dağlarına və Zəngəzur dəhlizinə can atan NATO orduları indi nə deyib xalqın arasına yerləşəcəklər?

Son 30 ildə cəbhəçiliyin və Əli Kərimliçiliyin çörək və siyasi ideologiyası, "Azərbaycan hakimiyyətini rus ordusu qoruyur" böhtanı bizi zəfərlərə gətirən Heydər Əliyev kursunun, heç bir xarici hərbi qüvvənin olmadığı bir ölkə quran İlham Əliyevin qarşısında baş əyməyə, elə həmin rus hərbçilərinin ardınca ölkədən çıxıb getməyə qadirdirlərmi? İndi bütün Qafqazın lideri Şeyx Şamildir, yoxsa İlham Əliyev? Xarici ordularla belə işləyərlər, cənablar! Rusiya ilə savaşı bizim üzərimizdən apara bilməyənlər məğlub oldular. Azərbaycan NATO qarşısında növbəti qələbəsini qazandı. İndi tarixdə ilk dəfədir, ermənilər üçün canını verməyən 1960 nəfər rus hərbçisi azərbaycanlılarla deyil, Qərblə döyüşməyə gedir. Gedin, düşünün: İlham Əliyevin növbəti qələbəsi nə olacaq?

**Sədrlik edən.** Sağ olun. Nizami Səfərov. Buyurun.

**N.Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Fransa Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinin rəhbərini məsləhətləşmələr üçün geri

çağırmışdır və yayılan məlumata görə, diplomat prezident Makron tərəfindən qəbul edilmişdir. Beynəlxalq münasibətlərdə və diplomatik təcrübədə rast gəlinən belə bir addımla bağlı bir sıra şərhlərə ciddi ehtiyac var. İkitərəfli münasibətlərdə Fransanın uzun müddət ərzində sərgilədiyi destruktiv fəaliyyət faktiki olaraq hazırda ən yüksək həddə çatmışdır. 25 ilə yaxın bir müddətdə ATƏT-in Minsk qrupu çərçivəsində guya vasitəçilik missiyası ilə məşğul olan dövlət 2008-ci il martın 14-də BMT-nin Baş Məclisi tərəfindən “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” adlı qətnamənin qəbul edilməsinin əleyhinə səs verir. Halbuki müzakirəyə təqdim olunan sənəddə Azərbaycan Respublikasının beynəlxalq sərhədləri çərçivəsində suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsi və bir sıra digər mühüm məsələlər öz əksini tapmışdır.

Fransa parlamentinin hər iki palatası – Senat və Milli Assambleya ölkəmizə qarşı vahid cəbhədən çıxış edərək hamılıqla qəbul olunan beynəlxalq hüquq prinsiplərinə dəfələrlə hörmətsizlik nümayiş etdirmiş, aşkar formada təcavüzkar Ermənistanı dəstəkləmiş və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini sual altına alan qətnamələr qəbul etmişdir. Fransa BMT-nin Təhlükəsizlik Şurası, Avropa Parlamenti və digər beynəlxalq platformalarda Azərbaycana qarşı müxtəlif sənədlərin qəbul edilməsi üçün xüsusi fəallıq nümayiş etdirib. Cənubi Qafqaz regionunda beynəlxalq sülhün və təhlükəsizlik rejiminin bərqərar olmasına heç bir maraq göstərməyən Fransa sürətlə Ermənistanı silahlandırır və yenidən bu bölgəni münaqişə zonasına çevirmək üçün müxtəlif addımlar atır. Əlbəttə, belə cəhdlərin qarşısı dövlətimiz tərəfindən qətiyyətlə alınacaq və istər iqtisadi, istərsə də hərbi cəhətdən regionun ən qüdrətli ölkəsi olan

Azərbaycan gündəlikdə duran bütün problemləri ən səmərəli formada həll edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, 1990-cı illərin əvvəlində xalqın etimadını itirən və ümidlərini puça çıxaranların, torpaqlarımızın işğal olunmasına səbəb olanların və 1 milyon insanı otuz ildə ağır məcburi köçkünlük həyatını yaşamağa məhkum edənlərin xalqa çağırışlar etməyə heç bir haqqı yoxdur. Hakimiyyət əllərinə düşəndə ölkənin ləl-cəvahirat fondunu talayaraq dövləti müflis edənlərin bu gün korrupsiyadan və talançılıqdan danışmağa haqqı varmı? Yola saldığımız üç onillikdə görünən hər şey dəyişildi. Azərbaycan dövləti gücləndi, xalqın rifahı yaxşılaşdı, torpaqlarımız işğaldan azad olundu, keçmiş məcburi köçkünlərin öz ata yurdlarına qaytarılması prosesinə başlanıldı və ölkəmiz sabitlik adasına çevrildi. Dəyişilməyən isə Əli Kərimli və onun ətrafında cəmləşmiş bir neçə nəfərin təfəkkürü oldu. Müharibələrin və gərginliklərin baş verdiyi ölkələrdə şəhər və kəndlərin yerlə-yeksan olmasını, dinc insanların yurdlarından didərgin düşmələrini, yüz minlərcə günahsız insanın ölməsini görə-görə bu gün ölkəmizdə təmin olunmuş sabitliyi pozmağa cəhd edilməsi xalqa qarşı xainlik və düşmənçilik deyilmi?

Noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanata uyğun olaraq, Rusiya sülhməramlılarının Qarabağda yerləşməsinin əbədi olacağını deyərək, "2025-ci ildə Əliyev rus hərbçilərini yola sala bilsə, mən ona "bravo" deyəcəyəm, "birinci" deyəcəyəm, "müzəffər" deyəcəyəm" deyən siz deyildinizmi? İndi rus sülhməramlıları hətta vaxtından bir il əvvəl ərazilərimizi tərk edirlər. Cəsarətiniz çatırsa, xalqı

meydanlara çağırmaq əvəzinə, vəd etdiyiniz sözləri ifadə edin. Siz bunu etməyəcəksiniz, çünki sizə verilən sifarişlər hakimiyyətin uğurlarına kölgə salmaq, ölkədə sabitliyi pozmaq, dövləti gücsüzləşdirmək və ölkəni 1990-cı illərin əvvəlindəki vəziyyətinə qaytarmaqdır.

Müdrik xalqımız hər şeyi görür və kimin kim olduğunu yaxşı bilir. Ona görə də siz heç vaxt uğur qazana bilməzsiniz. Prezident İlham Əliyev nəyi nə vaxt və necə etmək lazım olduğunu hamıdan yaxşı bilir. Ona görə də xalq öz liderinin yanındadır və qürurludur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, məlum olduğu kimi, artıq Rusiya sülhməramlılarının ölkəmizdən çıxarılması prosesinə başlanılıb. Heç şübhəsiz ki, üçtərəfli sənəddə müvəqqəti şərtinin qoyulması və prosesin məntiqi sonluğa çatdırılması Prezident İlham Əliyevin qətiyyətli və prinsipial siyasətinin nəticəsidir. 10 noyabr sazişində sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti yerləşdirilməsi ilə bağlı maddənin sənəddə əksini tapmasını da məhz Prezident İlham Əliyev israr etmişdi. Məhz Prezident İlham Əliyevin Qarabağla bağlı apardığı uğurlu siyasət nəticəsində Rusiya tərəfi sülhməramlıların Qarabağdan çıxarılması barədə qərar qəbul etdi. Heç şübhəsiz ki, Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması həm də Azərbaycan–Rusiya münasibətlərinin və iki ölkə liderinin yüksək səviyyəli əlaqələrinin göstəricisidir. Ölkələrimizin münasibətləri yüksək səviyyədədir. Sülhməramlıların çıxarılmasından sonra ikitərəfli dostluq münasibətləri daha da güclənəcək.

Eyni zamanda, Rusiya sülhməramlılarının Qarabağdan

çıxarılmasına Amerikanın münasibəti ciddi təəssüf doğurur. Dövlət Departamentinin nümayəndəsinin bu məsələni şərh edərkən Rusiyanı etibarsız müttəfiq adlandırması, sülhməramlıların Qarabağdan çıxarılmasını alqışlamaması, əksinə, mənfi tərzdə şərh etməsi Amerikanın riyakarlığının göstəricisidir. Bu, bir daha göstərir ki, Amerika və Fransa münaqişənin həllinin ən böyük əleyhdarlarıdır və münaqişənin bitməsini istəmirlər. İndiyədək dünyanın bütün bölgələrindən Rusiyanı sıxışdırmağa çalışan Amerika Qarabağdakı sülh-məramlılara yanaşmada fərqli mövqe ortaya qoydu. Dəfələrlə Rusiyanı Dnestryanıdan, Abxaziyadan, Cənubi Osetiyadan sülhməramlı kontingentini çıxarmağa çağıran, 2020-ci ilin yanvarında KTMT qüvvələrinin Qazaxıstandan çıxarılmasını alqışlayan ABŞ bu dəfə məyusluğunu açıq nümayiş etdirdi. Əslində, Amerika münaqişənin başa çatmasını, sülhün bərqərar olmasını və sülhməramlı missiyanın çıxmasını alqışlayaraq Azərbaycanı təbrik etməli idi. Əks mövqe ortaya qoyması bir daha göstərir ki, Amerika regionda davamlı sülhün təmin olunmasında maraqlı deyil və öz geosiyasi məqsədlərini güdür.

Biz 2023-cü ilin antiterror əməliyyatlarından bir neçə gün əvvəl, sentyabrın 17-də İstanbulda Qarabağla bağlı gizli Amerika-Rusiya-Avropa İttifaqı görüşünü də yaxşı xatırlayırıq. Bu görüş Amerika və Qərbin Azərbaycanın öz suverenliyini tam bərpa etməsinə imkan verməmək üçün hətta özünün əsas rəqibi olan Rusiya ilə belə sövdələş-məyə hazır olduğunu göstərdi. Heç şübhəsiz ki, bütün bunlara rəğmən, Azərbaycan qarşısına qoyduğu bütün hədəf və məqsədlərə bu günədək nail olduğu kimi, növbəti illərdə də nail olacaq. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, media təmsilçiləri. Artıq deyildiyi kimi, bir neçə gündür ki, Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin ölkəmizi tərk etməsi prosesi gedir. Həm də vaxtından düz il yarım əvvəl. Bu, ölkə Prezidenti İlham Əliyevin diplomatik məharətinin ən böyük uğurudur, zirvəsidir. Bu, həm də 44 günlük Vətən müharibəsində şəhid vermədən Kəlbəcərin, Laçının, Ağdamın işğaldan azad edilməsində özünü ifadə edən, – bir daha təkrar edirəm, – diplomatik məharətin məntiqi davamıdır. Biz – əvvəldən ölkə Prezidentinin siyasətini dərk edən, onunla bərabər olan hər bir kəs, Azərbaycan xalqının mütləq əksəriyyəti 44 günlük müharibədən sonra Rusiyanın sülhməramlı qüvvələrinin burada yerləşməsinə müvəqqəti hal kimi yanaşırdıq. Əli Kərimli və onun ətrafında olanlardan fərqli olaraq düşünürdük ki, İlham Əliyev ölkəmizdə erməni separatizminə son qoymağı başlıca hədəf götürüb və bu, onun strateji məqsədlərinin olduqca vacib tərkib hissələrindən biridir. Bu yolda ən müxtəlif üsullardan istifadə edən cənab Prezident buna nail oldu və əlbəttə, həmin dövrdə pislərin içərisindən ən yaxşısını seçərək bunu etdi, sülhməramlılar burada yerləşdi. Bu, müvəqqəti idi.

2023-cü ilin antiterror əməliyyatından sonra tamamilə əmin idik ki, zaman gələcək və sülhməramlı qüvvələr tezliklə buradan gedəcək. Çünki ölkə Prezidenti bir problemi həll edirdisə, ikinci problemi də mütləq olaraq həll etməli idi və bu da Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etmək idi. Bunu etdik. Bu gün Əli Kərimli və onun ətrafında olanlar əgər özlərində zərrə qədər ləyaqət hissi daşıyırlarsa, cənab Prezidentin önündə

baş əyərək ondan və Azərbaycan xalqından öz yalanlarına görə üzr istəməlidirlər.

Biz artıq bir sıra hədəflərə çatmışıq. Qarşıda 8 kəndimizin azad olunması, sərhədlərin delimitasiyası və demarkasiyası, eyni zamanda, sülh sazişinin bağlanması və Zəngəzur dəhlizinin açılması durur. Bütün bunları da cənab Prezidentimiz Azərbaycan xalqının iradəsinə söykənərək həll edəcək və Azərbaycanın daha böyük, geniş yola...

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, üç məsələ barəsində danışmaq istəyirəm. Birincisi, Şirvan kanalının əsasının qoyulması, yenidən bərpası ilə bağlı cənab Prezidentimizin nitqi və imzaladığı sənəd, fikrimcə, təkcə kənd təsərrüfatı əhəmiyyəti daşımır, eyni zamanda, bizim ərazilərimizlə bağlı "yuxarı", "aşağı", "dağlıq", "aran" və digər ifadələrin zamanla çıxarılmasıdır. Bütövlük anlamı daşıyır və cənab Prezidentimiz ərazilərimizin birlik, bütövlük mücəssəməsidir.

İkincisi. Azərbaycan xalqının böyük arzusu olan torpaqların işğaldan azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsinə laqeyd qalanlar, qazanılan Zəfəri, milləti və Azərbaycan rəhbərini təbrik etməyənlər bu gün insanlara müraciət edərək onları küçələrə çağırırlar. Onların buna mənəvi haqqı varmı? Yoxdur. Məncə, cavab aydındır. İntellektual mübarizədən çəkinənlərin insanları küçələrə, əzələ nümayişinə çağırması antimillidir. Millət buna heç bir zaman getməyəcək. Çünki bizim yolumuz islahatlar yoludur, təkamül yoludur və bu yolda da millətin bütövlüyünün rəmzi cənab Prezidentimiz İlham Əliyevdir.

Bildiyiniz kimi, bu gün Azərbaycan ərazisində heç bir

başqa ölkənin hərbçisi yoxdur. Bu, cənab Prezidentimiz İlham Əliyevin qonşularla ən düzgün münasibətlər qurmasının bir nümunəsidir, digər ölkələrə də model verir. Amma bunun səbəblərini başqa yerdə axtarmaq istəyənlər 10 noyabr tarixli sənədi oxusunlar və görsünlər ki, o sənədi kim imzalayıb, o orduları, sülhməramlıları Azərbaycana kim dəvət etmişdi, hansı ölkənin maraqları üçün dəvət etmişdi. Azərbaycanın maraqları üçün dəvət etmişdi və bu gün də Azərbaycanın maraqları üçün bu sülhməramlılar buradan çıxırlar. Buna görə həmin məsələlərə hay-küylə yanaşan, onu başqa yerdə axtaran insanlar artıq siyasətdən getməlidirlər. Hesab edirəm ki, cənab Prezidentin düşüncəsi ilə, strategiyası ilə onların düşüncələri arasında yerlə göy qədər fərq var. Heç biri müqayisə edilə...

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Rusiya sülhməramlılarının dinc formada Azərbaycandan çıxarılması, bütövlükdə, Cənubi Qafqaz tarixində yeni mərhələ deməkdir. Amma maraqlıdır ki, rus bazalarını Ermənistandan çıxarmaq üçün dəridən-qabıqdan çıxan kollektiv Qərb sülhməramlıların Azərbaycandan getməsindən məmnun görünmədi, hətta Vaşinqton buna görə Rusiyanı "etibarsız müttəfiq" adlandırdı. Görünən odur ki, bunlar bəzi təcrübələrə əsaslanıb sülhməramlı məsələsinə Bakı və Moskva arasında potensial böhran kimi baxırmış. Lakin cənab İlham Əliyevin bu məsələni vaxtından əvvəl kökündən həll etməsi göstərdi ki, Azərbaycan, sözün əsl mənasında, suveren, qüdrətli bir dövlətdir və Azərbaycan dövlətini digər dövlətlərlə, Azərbaycan Prezidentini isə digər liderlərlə müqayisə etmək olmaz.

Təbii ki, cari ssenari Qərbi qane etmir və ona görə də özünə bağlı proksi qüvvələri, o cümlədən Azərbaycan daxilində “Milli Şura” adlanan antimilli marionet dərnəyi aktivləşdirməkdədir və planlaşdırılan “mitinq şousu” də məhz bu proseslərin tərkib hissəsidir. Yaxşı, aydındır ki, qanunsuz aksiya çağırışları Qərbin sifarişidir. Bəs axı, sən Azərbaycan vətəndaşısan, insanları indiki həssas məqamda küçəyə çıxarıb nə tələb edəcəksən? Cəsarətin çatır, Avropa İttifaqına get, ABŞ-a, yaxud Fransaya etiraz et. Edə bilmirsən, axı. Əxlaqlı siyasətçi şəxsiyyətini, ölkəsini qranta satarmı? Əslində, təəccüblü deyil, çünki son 100 ildə nəinki ona həvalə edilmiş vəzifə öhdəliklərini, hətta evini, ailəsini atıb qaçan fərari siyasətçilər görmüşük. Amma təəssüf ki, hələ də onları öz adları ilə çağırmırıq və nəticədə də onlar tipli psevdosiyasətçilər durmadan artır. Hamısı da süni nəfəs cihazından asılı olan xəstə kimi internetdən asılı formada bitkisəl həyat sürürlər. Şəbəkəni ayırsan, elə oradaca siyasi meyitə dönəcəklər. Bir çölə çıxın, sizə hava dəysin, Qərbin pərçim etdiyi qara gözlüyü çıxarın, bu inkişafı, bu reallığı görün.

Rusiya sülhməramlılarının Azərbaycanı sakit şəkildə tərk etməsindən qıcıqlanan bu manqurtlar indi də yeni tezis tapıblar ki, rus hərbçilərini Azərbaycandan ilk dəfə biz çıxarmışıq. Hara çıxarmısız? Bəs Qəbələdə 2012-ci ilə qədər qalan hərbi baza kimin idi? Ümumiyyətlə, Rusiya sizi ciddi qəbul edirdimi? Sadəcə, o vaxt Rusiyanın özündə anarxiya hökm sürürdü, çıxarılan deyil, çıxan hərbçilər də burada xidmət etmək istəməyənlər idi. Guya çıxardınız, nə oldu? Onlardan aldığınız silahlarla da gedib vətəndaş müharibəsi başlatdınız, Gəncəni bombaladınız, Milli Məclisi atəşə tutdunuz.

Yəni Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması 1990-cı illərdə Rusiya hərbçilərinin bir qisminin Azərbaycandan çıxmasına bənzəmir. Cənab İlham Əliyev Qəbələdəki hərbi bazanı da, Qarabağdakı sülhməramlıları da Rusiyanın ən qüdrətli dönəmində ölkədən çıxardı. Üstəlik, çoxəsrlik əlaqələrimizə xələl gətirmədən. Bu mənada əminliklə deyə bilərik ki, sülhməramlıların çıxması nə qədər böyük tarixi hadisədirsə, bu prosesi Rusiya ilə münasibətlərə xələl gətirmədən reallaşdıra bilmək də bir o qədər ciddi siyasi uğurdur. Beynəlxalq aləmdə də bir daha başa düşdülər ki, bu regionda İlham Əliyevin miqyası ilə hesablaşmaq zəruridir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun. Sonuncu çıxış.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, 1980-ci illərin sonlarında Azərbaycanda başlanan xalq hərəkatı zamanı böyük mitinqlər keçirilirdi. Ermənistanda keçirilən mitinqlərdə Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi tələb olunurdu. Xalqımız isə qətiyyətlə buna qarşı çıxırdı. Xalqımız spontan şəkildə küçələrə axışırdı.

Ulu Öndərimiz ikinci dəfə hakimiyyətə gəldikdən sonra dövlət çevrilişlərinə qarşı da xalq yumruq kimi birləşdi, çevrilişlərin qarşısı alındı. Əgər spontanlıq yoxdursa, mitinq xülyadır, milli həmrəylik fərdlərin daxili səsinin məcmusudur. O vaxtlar nə indiki kimi telefonlar, nə də sosial şəbəkələr mövcud idi.

2020-ci ildə Tovuzda erməni təxribatı nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev, həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçumuz həlak oldu. Bakı şəhərində

böyük izdiham yaşandı. Lakin xarici qüvvələrin əlində oyuncaq olanlar həmin izdihamı parlamentə yönləndirdilər. Biz əyləşdiyimiz bu binanın hansı vəziyyətə salındığının şahidiyik. Paşinyan hərbçilərimizi öldürənə Ermənistanın milli qəhrəmanı adını verdi. Bizdə isə insanların etirazını dağıntılara, təxribatlara yönəldən qüvvələr tapıldı.

Azərbaycan dövlətinin gücünə bələd olmayanlar burada da yaman yanıldılar. Nəhayət, hamımızın hər gün və hər dəqiqə arzuladığımız vaxt gəldi, torpaqlarımız işğaldan azad olundu. Başımızı dik tuturuq. XXI əsrin qalib xalqıyıq. Xalq və rəhbər birliyi monumental xarakter daşıyır. Bu dönəmdə Fransanın, Avropa İttifaqının məkrli siyasətini heç cür bağışlamaq olmaz. Qələbəmiz gündəlik iş rejimlərinə və yuxularına haram qatıb. Bu gün mitinq etmək istəyənlər onlarla eyni təfəkkür daşıyıcılarıdır. Qəsbkarlara və onların tərəfdaşlarına züy tuturlar. Onlar Zəfərimizin düşmənləridir, Qarabağımızda aparılan tikinti-abadlıq işlərinə mane olmaq istəyənlərdir. Həqiqət isə həmişə qələbə çalır. Azərbaycan xalqının silahı həqiqətdir, sülhdür.

Sonda İranın Ermənistandakı səfiri Mehdi Sübhaninin özünün təhtəlşüurunun nəticəsi olan bir sitatını xatırladım: "Qarabağ müharibəsində erməni əsgərləri İsrail silahları ilə öldürülüb". Bəs Qarabağa ötürdüyünüz silahlarla Azərbaycan əsgərlərinin, qadınların, qocaların, körpələrin öldürülməsindən niyə danışmırsan, Mehdi Sübhani? Axı, o silahların ötürülməsində bu dövlətin də rolu olub. Bəlkə təhtəlşüuru deyil, şüuru işə salasınız? Siz erməniyə qahmar çıxdıqca erməni vəhşilikləri artdı, məscidlərimizdə saxladıqları donuzların sayı isə azalmadı. Onda səsiniz niyə batmışdı? Bəli, bütün bunları deməyə bizim

haqqımız çatır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxışlar sona çatdı. Mən hamıya təşəkkür edirəm.

İndi isə gündəliyin məsələlərinə keçirik. Bizim gündəliyimizdə bu gün 14 məsələ var. 1-ci məsələ Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatıdır. Hörmətli həmkarlar, bildiyiniz kimi, Hesablama Palatasının hesabatlarının Milli Məclisdə dinlənilməsi dövlət büdcəsinin formalaşdırılması və xərclənməsi üzərində maliyyə nəzarətinin səmərəliliyini təmin etməyə yönəlmişdir və bu sahədə parlament nəzarətinin ən mühüm istiqamətlərindən birini təşkil edir.

Onu da deyim ki, məsələnin müzakirəsi ilə əlaqədar Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədov, sədr müavini Nəsir Sadıqov, palatanın auditorları Vəfa xanım Mütəllimova, Cavid Bayramov, Vüqar İbrahimov, Hafiz İsmayılbəyli, Aparatın rəhbəri Tamerlan Yusif-zadə, şöbə müdirinin müavini Gülnar xanım Hacıyeva iclasımızda iştirak edirlər. Mən onları yenə də salamlayıram.

Hörmətli həmkarlar, Hesablama Palatasının hesabatını təqdim etmək üçün mən palatanın sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Gülməmmədov**, *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli iclas iştirakçıları, media nümayəndələri. “Hesablama Palatası haqqında” Qanunun, Milli Məclisin Daxili Nizamnaməsinin və beynəlxalq standartların tələblərinə uyğun olaraq Hesablama Palatasının 2023-cü ildəki fəaliyyəti barədə hesabat hazırlanmış və sizlərə təqdim edilmişdir.

2023-cü il Ali Baş Komandanın uğurlu siyasəti, hərbçilərimizin qəhrəmanlığı və şücaəti sayəsində suverenliyimizin bərpa olunduğu ilin yekunlarını özündə əks etdirməklə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə, cənab İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümünə təsadüf etmişdir. Hesablama Palatasının 2023-cü ildə fəaliyyətindəki və hesabatının strukturundakı yeniliklər hesabatda geniş əks olunmuş və komitə iclasında ətraflı məlumat verilmişdir. Fəaliyyətindəki yeniliklərdən bir neçəsinin, ayrı-ayrı dövlət qurumlarının gördüyü işlərin qiymətləndirilməsi üçün hökumət əsaslı dayanıqlı inkişaf məqsədlərinin səmərəlilik auditinin aparılmasını, kollegiya qərarlarının icrasına nəzarətin gücləndirilməsi üçün təkliflərimizin izlənməsi rəqəmsal modulunun tam tətbiq edilməsini, dövlət maliyyəsi sahəsində ixtisaslı kadr hazırlığını təmin etmək üçün iki universitetdə dövlət auditi üzrə silsilə təlimlərin keçirilməsini, ictimai iştirakçılıq məqsədi ilə rəsmi səhifəmizdə “Audit təklif et” bölməsinin yaradılmasını və nəhayət, dövlət sektorunda şəffaflığa və hesabatlılığa töhfə vermək məqsədi ilə Hesablama Palatasının büdcəsinin icrası və satınalmaların hesabatının təhlil-açıqlama şəklində və ölkədə ilk dəfə bir beynəlxalq tədbirə çəkilən xərclər smetasının icrasının rəsmi səhifəmizdə dərc edilməsini xüsusilə vurğulamaq istərdim. Hesabatımızın oxunaqlı və anlaşıqlı olması məqsədi ilə ilk dəfə olaraq iki xülasə, bir yazı və bir infoqrafik olmaqla, eləcə də mətn boyu istifadə olunan terminlərin açıqlamasını göstərən izahlı lüğət hesabata əlavə edilib. Hesabatın dilinin aydın olmasına da çalışmışıq. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutundan aldığımız rəydə hesabatda fikirlərin aydın,

dəqiq şəkildə ifadə edildiyi, ədəbi dil normalarının qorunduğu göstərilmişdir.

Hörmətli millət vəkilləri, hesabat ümumi məlumatlar, strateji planın icra vəziyyəti, fəaliyyət istiqamətləri və fəaliyyətin təşkili bölmələrindən, eləcə də cari ildə – 2024-cü ildə qarşıda duran vəzifələrə dair məlumatlardan ibarətdir. Çıxışımda hesabatın strukturuna dair ətraflı məlumatları təqdim etmək istərdim. Strateji idarəetmə, o cümlədən strateji planlaşma institutunun tətbiqi ilə bağlı zəruri təfəkkürün formalaşdırılması Hesablama Palatasının son bir neçə ildə təqdim etdiyi fəaliyyət istiqamətlərinin hesabatlarının əsasını təşkil edir. Bunu nəzərə alaraq əvvəlcə strateji planın icrası haqqında məlumatları diqqətinizə çatdırmaq istərdim. Məlum olduğu kimi, Hesablama Palatasının 2021–2025-ci illər üzrə strateji planı INTOSAI-ın prinsip və təlimatları nəzərə alınmaqla hazırlanmış, burada 2 yekun və 9 aralıq nəticə müəyyənləşdirilmişdir. Strateji planın hesabat ilində icrası məqsədi ilə bütün aralıq nəticələri əhatə edən 2023-cü ilin əməliyyat planı da tərtib edilmişdir. Burada potensial boşluqların aradan qaldırılması, fəaliyyətin müxtəlif istiqamətlərində təkmilləşməsi məqsədi ilə tədbirlər yer almışdır. Strateji planda nəzərdə tutulmuş fəaliyyətin icrası 90 əsas indikator, əsas fəaliyyət göstəricisi əsasında qiymətləndirilmişdir. Monitorinq indikatorlarından istifadənin məqsədi əsas təbliğatçılardan biri olaraq çıxış etdiyimiz dövlət sektorunda nəticəyə əsaslanan çərçivənin genişləndirilməsidir. Qeyd edim ki, göstəricilərin müəyyən edilməsi zamanı ali audit orqanlarının fəaliyyətinin ölçülməsi çərçivəsinə istinad etmişik. Onlardan əhəmiyyətli hesab etdiyimiz göstəricilərin plan və fakt məlumatları hesabatda öz əksini tapmışdır.

Əsas fəaliyyət istiqamətlərimiz. Qanunda göstərilən hər bir fəaliyyət istiqaməti üzrə məlumat təqdim etməyə keçməzdən öncə bildirmək istəyirəm ki, ötən il plenar iclasda millət vəkilləri tərəfindən səsləndirilən təkliflərdən il ərzində yararlanmışıq və fəaliyyət istiqamətləri üzrə görülən işləri qeyd edərkən buna da istinad etməyə çalışacağam. İlk fəaliyyət istiqaməti kimi kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi, “Hesablama Palatası haqqında” Qanunun 20.5-ci maddəsinə uyğun olaraq, 2023-cü ilin iş planına il ərzində müvafiq icra hakimiyyəti orqanının təklifləri əsasında 4 yeni tədbir, millət vəkilləri tərəfindən səsləndirilən fikirlər nəzərə alınmaqla Hesablama Palatasının üzvlərinin təklifləri əsasında audit və analitik fəaliyyət üzrə 2 yeni tədbir əlavə olunmuşdur. Bütün dəyişikliklər ümumi iş planının 13 faizini təşkil edir. 2023-cü ildə Hesablama Palatasının kollegiyası tərəfindən 41 audit və 4 analitik fəaliyyətin keçirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Nəticələrinin rəsmiləşdirilməsi 2024-cü ildə keçirilmiş bir analitik fəaliyyət istisna olmaqla, bütün tədbirlər başa çatdırılmış və Milli Məclisə məlumat verilmişdir. Audit və analitik fəaliyyəti əhatə edən 45 kənar dövlət maliyyə nəzarəti tədbirinin 42,2 faizi ilk dəfə keçirilmişdir. Son iki ilin göstəricisinin əvvəlki illərlə müqayisəsinə baxsaq, bunun əvvəlki illərdən bir qədər çox olduğunu deyə bilərik. Bunun isə əsas izahı odur ki, büdcə xərcləri artır, büdcə sifarişçiləri genişlənir, bunun nəticəsində yeni audit obyektləri yaranmalıdır.

2023-cü ildə Hesablama Palatasının əsas nəzarət sahələri əhaliyə ödənilən sosial müavinət və təqaüdlər, tibbi sığorta xərcləri, fermerlərə göstərilən dövlət dəstəyi, sosial obyektlərin tikintisi və təmiri, hüquq mühafizə

sahəsinin ayrı-ayrı istiqamətləri, dövlət satınalmaları, dövlət rüsumlarının və vergilərinin formalaşması vəziyyəti olmuşdur. Audit və analitik fəaliyyət üzrə dövlət maliyyəsinin idarə edilməsində ümumi nöqsan məbləği 1 milyard 971,9 milyon manat tərəfimizdən müəyyən edilmişdir. Ümumi nöqsan məbləğini bir neçə qrupda təsnifləşdirmək istərdim. İlk qrupda büdcəyə dəyən zərərdir. Hesablama Palatasının kollegiyası tərəfindən büdcəyə dəyən zərərin 103,2 milyon manat olduğu hesablanmışdır. Bu məbləğ artıq və əsassız xərclər, görülməmiş iş və xidmətlər, alınmamış mallar, hesablanmamış və ödənilməmiş vergilər, ilkin təsdiqedici xərc sənədlərinin saxtalaşdırılması, dövlət satınalmalarındakı müxtəlif xarakterli pozuntular və büdcə vəsaitlərinin düzgün idarə edilməməsindən ibarətdir.

Nəzarət tədbirləri ilə büdcəyə zərərdən əlavə, digər maliyyə pozuntuları da qeydə alınmışdır ki, bu pozuntunun məbləği 459,3 milyon manata bərabər olmuşdur. Bu məbləğə vahid büdcə təsnifatına əməl olunmaması, satınalma prosedurlarının tətbiq edilməməsi, mal və xidmət alışının orta bazar qiymətindən baha əldə edilməsi nəticəsində dövlət vəsaitinə qənaət olunmaması, ilin sonunda qalığın silinib büdcəyə köçürülməməsi və sair pozuntular aid edilmişdir. Növbəti üçüncü qrup maliyyə hesabatları büdcə və mühasibat uçotundakı təhriflərlə bağlıdır ki, bu, 1 milyard 252,5 milyon manat həcmindədir.

Sonuncu qrupa səmərəsiz xərcləri aid etmişik. Hazırda ölkə qanunvericiliyində bu anlayışa rast gəlinmir. Biz beynəlxalq təcrübəyə istinad etməklə səmərəsiz xərcləri hesablamağa çalışmışıq. Başa çatdırılmış auditlərlə əhatə olunan qurumlar tərəfindən, ümumilikdə, 156,8 milyon manat məbləğində səmərəsiz xərcə yol verildiyi müəyyən edilmiş-

dir. Bu, qurumun fəaliyyətinin nəticəsi, iqtisadi qənaətliyi və vəsaitlərin səmərəli idarə edilməsi ilə bağlıdır.

Hesabat ilində Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə idarəsi tərəfindən 2020–2022-ci illəri əhatə edən 6 uyğunluq auditi keçirilmişdir. Ümumilikdə, idarə tərəfindən auditlərlə müəyyən edilmiş pozuntu məbləği 120 milyon manatdan çox olmuşdur. Bütün auditlər üzrə aşkarlanmış hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunması ilə əlaqədar müvafiq materiallar hüquq mühafizə orqanlarına göndərilmişdir.

Hörmətli millət vəkilləri, auditlər üzrə yol verilmiş müxtəlif xarakterli pozuntular və onların xüsusi çəkisi əvvəlki illərdən əsaslı fərqlənməmişdir. Aparılmış auditlərin nəticələrini təkrar sadalamadan hesabatda bəzi riskləri qeyd etmişik. Komitə iclasında həmin risklərin ən vacibləri diqqətə çatdırılıb. Bugünkü iclasda dövlət maliyyəsinin idarə edilməsindəki mövcud reallıqlara, izlənilən meyillərə, habelə onların səbəb olduğu problemlərə diqqət yetirmək istərdik. İlk olaraq dövlət vəsaitlərinin proqnozlaşması ilə bağlı.

1. Dövlət vəsaitlərinin proqnozlaşması prosesinin nisbətən formal xarakter daşıması, proqnozlaşma zamanı funksional fəaliyyətin və hədəflərin diqqətdə tam saxlanılmaması.

2. Büdcədən ayrılan vəsaitin vaxtında icra edilməməsi. Audit nəticələrinin təhlili göstərir ki, bu, bir tərəfdən, son illərdə il ərzində büdcəyə yenidən baxılmaqla artırılmış xərclərin əksər hissəsinin ikinci yarımilə düşməsi ilə əlaqələndirilsə də, digər tərəfdən, fəaliyyətin müəyyən edilmiş planlara və qrafiklərə uyğun icra olunmaması, bəzi hallarda bu planların, ümumiyyətlə, formal xarakter daşıması ilə əlaqədardır.

3. Bəzi istiqamətlərdə xərclərin Nazirlər Kabinetinin müəyyən etdiyi normalarla tənzimləndiyini görmək mümkündür. Belə normalar praktik baxımdan olduqca əhəmiyyətli olmaqla yanaşı, digər tərəfdən, öz adekvatlığını da daim qorumalıdır. Bir çox hallarda bu tip normalara praktikada qurumlar tərəfindən riayət edilmədiyini görmək mümkündür. Bu, bəzən normanın minimum səviyyəsinin tənzimlənməsi ilə paralel, maksimum hədlərin dəqiq tənzimlənməməsi, bəzən normaların uzun müddət yenilənməməsi, ehtiyaca baxılmaması və ya ümumiyyətlə, normanın müvəqqəti qəbul edilməsi ilə bağlı ola bilər.

Bundan əlavə, əksər hallarda normativlər yalnız büdcədən maliyyələşən təşkilatlara şamil edilir. Publik hüquqi şəxslərə münasibətdə tənzimləmənin sərbəstliyi görünür. Halbuki nəzarət tədbiri zamanı publik hüquqi şəxslərdə vəsaitin istifadə məqsədinin dövlət orqanından heç bir xüsusiyyəti ilə fərqlənməməsi halında daha yüksək xərcləmələrin edildiyini görmək mümkündür. Burada arqument publik hüquqi şəxsin sahibkarlıq fəaliyyətindən gəlir imkanının olması ilə də bağlı ola bilər. Lakin nəzərə almaq lazımdır ki, publik hüquqi şəxslərin gəlirləri yalnız fəaliyyət istiqamətində istifadə edilməlidir.

Eyni zamanda, biz qəbul edirik ki, ölkədə nəticə əsaslı büdcəyə keçidin tam mənada tətbiq edilməsi halında hazırkı sifariş əsaslı büdcə konsepsiyasının atributu olan normativ büdcənin tələblərində, habelə büdcədə yerdəyişmələrlə bağlı məhdudiyyətlərdə müəyyən yumşalmalar ola bilər.

4. Bəzi investisiya layihələrinin kifayət qədər maliyyə tutumlu olması fonunda sifarişçi təşkilatlar tərəfindən vəsaitin düzgün idarə edilməməsi. Bu, tikinti vaxtının

uzanmasına, başa çatmayan tikililərin formasında qalmaqla layihənin nəticəliliyinin azalmasına, ayrılan vəsaitin yenidən bölüşdürülməsinə, keçid layihələrin sayının artmasına, habelə obyektlərin yekun dəyərinin çoxalmasına da səbəb olur.

5. Dövlət sektoru üzrə konsolidə edilmiş maliyyə hesabatlarının olmaması. Bu, büdcə üzrə qərarların aydın mənzərə olmadan verilməsinə səbəb olur. Məlumat üçün bildirim ki, konsolidə edilmiş maliyyə hesabatları yalnız pul vəsaiti hərəkəti deyil, aktiv və öhdəliklərin tarix üzrə dəyişimini də izləməyə imkan verir. Dövlət sektoru üzrə konsolidə edilmiş maliyyə hesabatının hazırlanması çoxsaylı mərhələlərdən keçir. İlkin mərhələlərdən biri qurum səviyyəsində konsolidasiyanın doğru aparılmasıdır. Apardığımız auditlər göstərir ki, bu sahədə qanunvericilikdə və metodoloji bazada, habelə kadr potensialında, o cümlədən biliklərin praktikada tətbiq olunmasında da problem var.

6. Qurumlar tərəfindən daxili nəzarət mühitinə diqqət verilməməsi. Ümumiyyətlə, hazırkı qanunvericilik bu məsələyə dair bəzi sualları cavabsız saxlayır. Məsələn, dövlət sektoru təşkilatlarında daxili auditlə bağlı məsələlər qanunvericilikdə, ümumiyyətlə, tənzimlənmir. Bu strukturun fəaliyyəti pozuntuların yaranmaması üçün preventiv addım hesab oluna bilər.

Hörmətli millət vəkilləri, daha vacib olan auditlərin yekun nəticəsi, audit fəaliyyətinin təsiri, auditin yaratdığı dəyərdir. Hesabatda audit təsirinin ölçülməsi yanaşmasının bir qədər də genişlənməsinə, təsirin iqtisadi, maliyyə və cəmiyyət baxımından dəyərləndirilməsinə çalışmışıq. İlk olaraq nəzarət obyekti olmuş bəzi qurumların maliyyə fəaliyyətində Hesablama Palatasının təklif və tövsiyələ-

rinin nəzərə alınması bu qurumlar üzrə müsbət meyillərlə nəticələnmişdir. Audit nəticələrinin təhlili göstərir ki, iki və daha çox sayda audit keçirmiş obyektlərin 69,6 faizində Hesablama Palatasının əvvəlki təklif və tövsiyələrinin nəzərə alınması ilə maliyyə fəaliyyətində nisbətən intizam gücləndirilmişdir. 7 qurumda isə əvvəlki auditlə müqayisədə müsbət meyillər müşahidə edilməmişdir. Təsadüfi deyil ki, həmin qurumların 4-ü üzrə materiallar hüquq mühafizə orqanlarına göndərilmişdir.

İkinci. Audit təsirinin qiymətləndirilməsi istiqamətində atılan digər addım nəzarət tədbirləri nəticəsində qəbul edilmiş kollegiya qərarlarının icrasının izlənməsidir. Bu baxımdan Hesablama Palatası tərəfindən qərarlarda əks olunmuş məsələlərin icrasının izlənməsi həyata keçirilir.

2023-cü ilin iş planı üzrə başa çatdırılmış audit və analitik fəaliyyətlərlə təsdiq edilmiş 214 təklifdən 119-u tam, 33-ü qismən icra edilmişdir. Qanunvericiliklə müəyyən edilmiş, müddəti bitməyən və icra olunmayan təkliflərin sayı 62 olmuşdur. Maliyyə xarakterli təkliflərimiz arasında bəzilərini vurğulamaq istərdim. 2023-cü ilin iş planına əsasən pul, əvəzləşmə və natura ifadəsində bərpası haqqında qərar verilmiş 60,6 milyon manata qarşı 55,7 milyon manat, digər tədbirlərin görülməsi ilə bağlı qərar verilmiş 34,9 milyon manata qarşı 23,5 milyon manat icra edilmişdir. Orta aylıq əsasda 1,1 milyon manat ödənişin qarşısı alınmışdır.

Növbəti istiqamət əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri üzrə hesabat ilində qurumlar tərəfindən görülmüş işlərin izlənməsidir. 2022-ci ilin iş planına uyğun olaraq, keçirilmiş nəzarət tədbirləri üzrə dövlət vəsaitlərinin bərpasına dair təkliflərlə bağlı qalan 25,5 milyon manatın icrası davam etdirilmişdir.

Hesabat dövründə həmin məbləğin 17 milyon manatı üzrə tədbirlər həyata keçirilmiş, o cümlədən 9,5 milyon manatı bərpa olunmuş, 900 min manatı müqavilə məbləğindən azaldılmış, 6,6 milyon manatı isə əvvəlki illərin öhdəliyinin bağlanmasına yönəldilmişdir.

Eyni zamanda, 2022-ci ilin maliyyə hesabatlarının auditi nəticəsində aşkarlanmış 564,5 milyon manat əhəmiyyətli təhriflərin 254,7 milyon manatı üzrə hesabat dövründə müvafiq düzəlişlər edilmişdir. Bundan əlavə, əvvəlki illərin iş planlarının icrası üzrə daha 1,3 milyon manatın da müvafiq büdcələrə bərpası təmin edilmişdir.

İnzibatçılıqla bağlı nəticələrin davamı olaraq Hesablama Palatasının göndərdiyi materiallar üzrə hüquq mühafizə orqanları tərəfindən görülmüş işlərə keçmək istərdim. Hesabat ilində Naxçıvan Muxtar Respublikasındakı idarə tərəfindən aparılan 6 tədbir də daxil olmaqla 15 nəzarət tədbiri üzrə müvafiq materiallar kollegiya qərarına əsasən Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim edilmişdir. Hesabat tərtib edildiyi tarixə olan məlumatlara əsasən hesabat ilində 2023-cü ilin və əvvəlki illərin nəzarət tədbirləri üzrə 900 milyon manatın bərpası təmin edilmiş və bu istiqamətdə işlər davam etdirilir.

Hörmətli millət vəkilləri, qanuna əsasən ikinci fəaliyyət istiqamətimiz büdcə layihəsinə və icrasına rəylərin verilməsidir. 2023-cü ildə dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə Hesablama Palatası tərəfindən 6 rəy, yenidən baxılma ilə bağlı 3 rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. İlk dəfə olaraq 1 rəy maliyyə auditi üzərindən verilmişdir. Rəylərin auditlər üzrə verilməsi təcrübəsinə keçid də ortamüddətli dövr üçün müəyyənləşdirilmiş hədəflərdən

biridir. Rəylərlə əldə edilmiş nəticələrin bir hissəsini kəmiyyət ifadəsində hesablamağa çalışmışıq. Belə ki, 2023-cü ildə verilmiş rəylərdə 1 milyard 350 milyon manatdan çox uyğunsuzluğun olduğu müəyyən edilmişdir. Bu məbləğin əsas hissəsini eyni gəlirin ayrı-ayrı illərdə iki dəfə tanınması və vahid büdcə təsnifatına uyğun nəzərdə tutulmama və icra təşkil edir.

Qeyd edək ki, fəaliyyət haqqında hesabatımızda uyğunsuzluq kimi göstərilmiş məbləğin 218 milyon manatı 2024-cü ilin dövlət büdcəsi layihəsində nəzərə alınmaqla müvafiq qaydada düzəldilmişdir. Bunu da ali audit orqanının təsirini səciyyələndirən göstəricilərdən saya bilərik.

Beləliklə, 1-ci və 2-ci fəaliyyət istiqamətləri üzrə dövlət auditinin təsiri, yəni yaratdığı əlavə dəyər barədə məlumatları ümumiləşdirərək hesabat ilində fəaliyyətimizin nəticəsində 66,5 milyon manat vəsaitin Hesablama Palatası tərəfindən, 900 min manatın hüquq mühafizə orqanları tərəfindən bərpa edildiyini, bundan əlavə, maliyyə hesabatları üzrə 254,7 milyon manat, büdcə hesabatları üzrə 218,8 milyon manat məbləğində təhrif üzrə düzəliş aparıldığını qeyd edə bilərik.

Hesabat ilində qanunun tələbinə uyğun olaraq, audit olan qurumların bank və xəzinə hesablarının bağlanması barədə təqdimatların verilməsi və ya inzibati cəzanın tətbiqi ilə bağlı hər hansı bir addım atmamışıq. Görülən bütün tədbirlər yalnız qarşılıqlı dialoq əsasında həyata keçirilmişdir.

Hörmətli millət vəkilləri, dövlət maliyyəsinin idarə edilməsi sahəsində tövsiyələrin verilməsi qanunumuza əsasən fəaliyyətin 3-cü istiqamətinin tələblərindən irəli gəlir. Məlumat vermə və tövsiyələrin nəticəsində müvafiq

qurumlar tərəfindən qəbul edilmiş qərarlar da ali audit orqanının yaratdığı əlavə dəyərin ölçülməsi göstəricisinə aid edilir. Dövlət maliyyə idarə edilməsinin təkmilləşdirilməsi məqsədi ilə hesabat ilində Nazirlər Kabinetinə nəzarət tədbirlərinin nəticələri üzrə təqdim edilmiş tövsiyə məlumatlarının sayı 9 olmuşdur. Nazirlər Kabineti tərəfindən 2023-cü ilin fəaliyyəti haqqında hesabatda bu tövsiyələrin nəzərə alınması barədə məlumat daxil edilmişdir. Bu günlərdə qanunvericilikdə dəyişikliklərə dair növbəti təkliflər paketini Nazirlər Kabinetinə təqdim etmişik. Təkliflərdən bəziləri fəaliyyətimizə dair hesabata da daxil edilib. Bundan əlavə, rəylərimizdə əks olunan 19 məsələ üzrə tövsiyə və qeydlər Maliyyə Nazirliyi tərəfindən məqbul hesab edilməklə büdcə sənədləşməsində nəzərə alınmışdır.

Bundan başqa, Hesablama Palatasına iqtisadi sahədən, o cümlədən dövlət maliyyəsi üzrə il ərzində bir çox dövlət orqanından, o cümlədən Milli Məclisdən daxil olmuş bir neçə hüquqi akt üzrə təklif edilən yeni qanun layihələrinə, o cümlədən bir sıra hüquqi akt üzrə əlavə və dəyişikliklərə də münasibət bildirilmişdir.

Hörmətli millət vəkilləri, fəaliyyətimizin təşkili və beynəlxalq əməkdaşlıqla bağlı məlumatlara keçməzdən öncə komitə iclasında qaldırılan məsələlər nəzərə alınmaqla bəzi məqamları diqqətinizə çatdırmaq istərdim. İlk olaraq dövlət auditinin nəticələri əsasında audit obyektləri tərəfindən nöqsana yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün addımların atılması. 2023-cü ildə həyata keçirilmiş nəzarət tədbirləri üzrə audit obyektləri tərəfindən təqdim olunmuş məlumatların təhlili göstərir ki, obyektlər tərəfindən məsuliyyətə cəlb etmək istiqamətində fəaliyyət əvvəlki illərə nisbətən yetərlidir.

Hesablama Palatasına təqdim olunan məlumatlara əsasən intizam məsuliyyətinə cəlb olunan əməkdaşların sayı 80 nəfərə yaxın olmuşdur. Biz bunu qənaətbəxş hesab etmirik. Belə ki, nöqsanlara yol vermiş şəxslər üzrə 9 audit obyekti tərəfindən görülən tədbirləri məqbul hesab etmək mümkün olsa da, dövlət büdcəsinə zərər hesablanmış və aidiyyəti istiqamətdə zərərin ödənilməsini təmin etmiş 13 audit obyekti tərəfindən əməkdaşlar, demək olar ki, intizam məsuliyyətinə belə cəlb olunmamışdır.

Hesablama Palatası tərəfindən preauditin aparılmaması ilə bağlı. Məlum olduğu kimi, ali audit orqanlarının Konstitusiyası hesab edilən Lima Bəyannaməsinə əsasən postaudit ali audit orqanlarının mütləq vəzifəsidir. Lakin preaudit milli qanunvericilikdən irəli gəlir. Hazırda "Hesablama Palatası haqqında" Qanundan göründüyü kimi, qanunvericilik preauditi birbaşa müəyyən etmir. Lakin layihəyə rəy verməklə Hesablama Palatası qarşısında müəyyən vəzifə qoyulub. Bu vəzifə eks antiqiymətləndirilməni ehtiva edir. Hesabat ili ərzində bu vəzifəni icra etməklə 7 rəy vermişik.

Auditlər vasitəsi ilə erkən aşkarlanma ilə bağlı. Əvvəlki illərdə olduğu kimi, hesabat ilində də işğaldan azad olunmuş ərazilərin bərpasına ayrılmış vəsaitlərin auditi çərçivəsində davam edən layihələrin auditini həyata keçirmişik. Bəzi obyektlər üzrə layihə smetası sənədlərinə yenidən baxılması, müqavilələrin azalması ilə bağlı məsələ qaldırmışıq. Hesab edirik ki, bu, dövlət vəsaitinə qənaəti formalaşdıracaq.

Bir məqamı da xüsusi vurğulamaq istərdim ki, tamamlanmamış layihələrin auditi zamanı praktikada bir sıra məqamlar ortaya çıxır. Sənədləşmələr yetərli olmur və nəticədə audit prosedurlarının aparılmasında çətinlik yaranır.

Hörmətli millət vəkilləri, Hesablama Palatası 2023-cü ildə beynəlxalq fəaliyyətinə xüsusi diqqət yetirmiş, beynəlxalq təşkilat və bir çox ölkələrin ali audit orqanları ilə münasibətlərin gücləndirilməsi məqsədi ilə ikitərəfli və çoxtərəfli müstəvidə fəaliyyətini davam etdirmişdir. Bu, fəaliyyətimizin 4-cü istiqamətini ehtiva edir.

Hesabat ilində beynəlxalq ali audit orqanları cəmiyyətində Hesablama Palatası fəaliyyəti qiymətləndirilən qurumdan qiymətləndirən quruma çevrilmişdir və beynəlxalq təşkilatın təklifi ilə qoşulduğumuz layihə çərçivəsində Tacikistan Respublikası Hesablama Palatasının fəaliyyəti tərəfimizdən qiymətləndirilmişdir.

Qarşılıqlı əməkdaşlığın və potensialın gücləndirilməsi məqsədi ilə Pakistan İslam Respublikasının və Koreya Respublikasının ali audit orqanları ilə memorandumlar imzalanmışdır. İmzalanmış memorandumlar çərçivəsində paralel və birgə auditlərin aparılması, maraq doğura bilən sahələrdə təlimlərin keçirilməsi, habelə metodoloji baza üzrə təcrübə mübadiləsi nəzərdə tutulmuşdur.

Hesabat ilində Hesablama Palatasının ali audit orqanlarının beynəlxalq təşkilatın işçi qruplarında, toplantılarında iştirakı təmin olunmuşdur. 4 beynəlxalq tədbirə ev sahibliyi etmişik. 2023-cü ilin dövlət büdcəsində Hesablama Palatası üçün ilkin olaraq 10,6 milyon manat təsdiq edilmiş, il ərzində bölüşdürülməmiş xərc istiqamətlərindən 199,6 min manat əlavə vəsait yönəldilmişdir.

İcra prosesində büdcəmizdə dəyişikliklər aparılmaqla ilkin təsdiq edilmiş məbləğ 2,2 milyon manat azaldılmaqla büdcə 8,7 milyon manat müəyyən edilmiş, həmin vəsait tam icra olunmuşdur. Əvvəlki ildə olduğu kimi, hesabat ilində də Hesablama Palatasının maliyyə fəaliyyəti audit edilmiş, maliyyə hesabatlarına Pakistan ali audit orqanı

tərəfindən müsbət rəy verilmişdir.

Hörmətli millət vəkilləri, çıxışımı bitirməzdən əvvəl bildirmək istəyirəm ki, cari il üçün qanunla nəzərdə tutulan vəzifələrlə yanaşı, bəzi tədbirlərin keçirilməsini də planlaşdırırıq. İlk olaraq 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" olduğunu nəzərə alaraq bir neçə mövzuda ekoloji auditlərin keçirilməsi, Türkiyənin ali audit orqanı olan Türkiyə Sazişlər Bakanlığı ilə 2 mövzuda paralel auditin keçirilməsi, COP29 tədbirində həmkar ali audit orqanlarının iştirakının təşkili və iqlim fəaliyyətinin qiymətləndirilməsinə ali audit orqanlarının cəlb edilməsi məsələlərinin müzakirə edilməsi, məsafədən auditlə bağlı proqram təminatının hazırlanması işlərinə başlanması və Asiya ölkələrinin ali audit orqanlarının maliyyə hesabatlarının auditinin keçirilməsi. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hələ Tahir müəllimə qulaq asacağıq, sonra isə çıxışlara keçəcəyik.

Hörmətli həmkarlar, Hesablama Palatasının hesabatına Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə də mən sözü hörmətli Tahir Mirkişiliyə verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. "Hesablama Palatası haqqında" Qanunun 7-ci maddəsinə və Milli Məclisin Daxili Nizamnaməsinin 21-ci maddəsinə əsasən ali audit orqanı olan və kənar dövlət maliyyə nəzarətini həyata keçirən Hesablama Palatası öz fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məc-

lisinə illik hesabat təqdim edir. Bu fəaliyyətin istiqamətləri isə müvafiq qanunun 6-cı maddəsində göstərilmişdir.

Palatanın 2023-cü ildəki fəaliyyəti ilə bağlı hazırladığı hesabat Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş təqdimat və müzakirə edilmişdir. Komitə üzvləri hesabatla bağlı fikirlərini, təkliflərini və iradlarını bildirmişlər. Hesab edirik ki, təqdim olunmuş hesabat struktur və məzmun baxımından əhatəli və informativdir, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin icra səviyyəsinin və səmərəliliyinin ölçülməsi üçün xeyli məlumatlarla təchiz edilmişdir.

Təqdim olunan hesabat 2023-cü ildə palatanın iş planı ilə nəzərdə tutulmuş və həyata keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirlərini, büdcə qanunvericiliyinin tələb etdiyi fəaliyyəti, həmçinin palatanın hesabat ilində cari fəaliyyəti ilə bağlı digər məlumatları özündə əks etdirmişdir. Hesabata audit, analitik və monitorinq fəaliyyəti ilə bağlı məlumatlar daxil edilmişdir. Builki hesabatda da nəticə əsaslı büdcə modelindən istifadə olunmuşdur. Yəni planlaşdırılmış və icra edilmiş fəaliyyətlər müvafiq büdcə və nəticə göstəriciləri qeyd olunmaqla göstərilmişdir. Palatanın strateji planının, 2023-cü il üçün əməliyyat planının 91,7 faiz icra olunmasını təqdirəlayiq hal hesab edirik. Qeyd edim ki, 2022-ci ildə bu rəqəm 81,3 faiz idi.

Hesabatda audit təsirinin ölçülməsi üzrə tətbiq edilən yanaşmanın genişləndirilməsini, fəaliyyətin kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyət göstəricilərinin, o cümlədən nəzərə alınmış təklif və tövsiyələr barədə məlumatların verilməsini də müsbət hal hesab edirik. Palata tərəfindən ilk dəfə olaraq həyata keçirilən hökumət əsaslı dayanıqlı inkişaf məqsədlərinin qiymətləndirilməsi,

konsolidə edilmiş maliyyə hesabatlarının auditinin aparılması, investisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi haqqında geniş məlumatlar verilmişdir. Biz komitə üzvləri olaraq bu istiqamətdə palatanın fəaliyyətini məqbul hesab edirik.

Hörmətli həmkarlar, 2023-cü il möhtərəm cənab Prezident tərəfindən "Heydər Əliyev İli" elan edilmişdir. Azərbaycan dövlətinin memarı olan Ulu Öndər Heydər Əliyev iqtisadiyyatı gücləndirməklə istənilən milli hədəfə nail olmağın yolunu müəyyən etmişdir. Eyni zamanda, bu tarixi bir ildə Azərbaycan ərazilərinin separatçı qüvvələrdən tam təmizlənməsi möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz üçün yeni bir dövrün başlanmasına rəvac vermişdir. Qələbəmizin 3-cü ildönümünü qeyd etdiyimiz bu ildə işğaldan azad edilmiş ərazilərdə dünyada misli görünməmiş geniş bərpa-quruculuq işləri həyata keçirilmiş, əldə etdiyimiz Zəfər daha da möhkəmlənmişdir.

2023-cü ildə ölkədə makroiqtisadi sabitlik qorunub saxlanılmış, insanları narahat edən inflyasiya isə cilovlanmışdır. Bu il də ümumdaxili məhsul 1,1 faiz, qeyri-neft-qaz sektoru isə 3,7 faiz çoxalmışdır. Ümumdaxili məhsulun mütləq ifadədə hesabat ilində həcmi 123 milyard manata çatmışdır. Dövlət büdcəsi gəlirlərinin 35,5 milyard manat, xərclərinin isə 36,5 milyard manat icra edilməsi palatanın potensial fəaliyyət dairəsinin 2023-cü ildə daha da artdığını deməyə imkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlət xərclərinə nəzarətin artırılmasını, maliyyə intizamının, resurslardan istifadənin səmərəlilik səviyyəsinin yüksəldilməsini bütün dövlət orqanlarının diqqət mərkəzində olmalı olduğunu əsas vəzifələrdən biri kimi

müəyyən etmişdir. Qarşıya qoyulan bu tapşırığa əməl edilməsində mühüm missiya yerinə yetirən, kənar dövlət maliyyə nəzarətini həyata keçirən, Milli Məclisin bu proseslərə səmərəli nəzarətinin artmasında mühüm analitik məlumat mənbəyi rolu oynayan Hesablama Palatasının fəaliyyəti, bu fəaliyyətin güclənməsi və səmərəliliyin artması bizim əsas hədəflərimizdən biridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında aparılmış geniş müzakirələrdən sonra gəlinmiş bir çox qənaəti sizinlə bölüşmək istəyirəm. Qeyd edim ki, palatanın fəaliyyətindəki güclü və zəif tərəflərin hesabatda şəffaf əks olunması bu istiqamətdə açıq və səmərəli müzakirələrin aparılmasına şərait yaratmışdır. Hesabatın geniş və informativ olmasını, qısa icmalın və təqdimatın hazırlanmasını müsbət qiymətləndiririk. Təqdim edilmiş materiallarda palatanın hesabat ilindəki fəaliyyəti barədə, əsasən, məlumat almaq mümkündür.

Hörmətli həmkarlar, nəzarət tədbirlərinin planlaşmasında Milli Məclis deputatlarının çıxışlarının da nəzərə alınmasını, nəzarət tədbirlərinin, əsasən, icra edilməsini, bu barədə audit nəticələrinin Milli Məclisə təqdim olunmasını və “Dövlət auditi” jurnalında dərc edilməsini yaxşı nəticə hesab edirik. Maliyyə auditinin əhatə dairəsinin 8,6 milyard manata, uyğunluq auditinin əhatə dairəsinin isə 5,8 milyard manata yüksəlməsi də təqdirəlayiq haldır. Hesabatda iki və daha çox sayda audit keçirmiş obyektlərin 69,6 faizində maliyyə intizamının nisbətən güclənməsi qeyd edilmişdir. Bu göstəricidən çıxış etsək, nəzarət tədbirlərinin həm maliyyə, həm də fəaliyyət baxımından əhatə dairəsinin davamlı olaraq genişlənməsini vacib sayırıq. Səmərəlilik auditinin fəaliyyəti üzrə əhatə dairəsinin genişlənməsi bir çox maliyyə

pozuntularının səbəblərinin erkən aradan qaldırılması üçün faydalıdır.

Audit sahəsində aparılan araşdırmalar göstərir ki, nöqsan və çatışmazlıqların erkən müəyyən edilməsi dəyən zərərin əhəmiyyətli hissəsinin qarşısının alınmasına imkan yarada bilir və bu, daha səmərəli bir fəaliyyətdir.

Ümumiyyətlə, müzakirələr göstərir ki, auditlərin sayı və əhatə dairəsinin artması üçün bir sıra istiqamətlərdə əlavə tədbirlərin görülməsinə və resursların artırılmasına ehtiyac vardır. Fikrimizcə, nəzarət tədbirlərinin orta davametmə müddətinin qısaldılması, dövlət orqanlarında elektron uçot sisteminin tətbiqinin genişləndirilməsi, dövlət maliyyə məlumatlarının vahid elektron bazasının yaradılması, elektron büdcə sisteminə keçid, süni intellektə əsaslanan risklərin müəyyən edilməsi bu hədəfə çatmağa imkan verə bilər. Əks halda palatanın ştat vahidlərinin sayının artırılması kimi klassik tədbirlərə ehtiyac yaranacaqdır.

Palata tərəfindən dövlət büdcəsi gəlirlərinin 95,4 faizinin, xərclərinin isə 77,6 faizinin auditinin aparılmasını mövcud imkanlar çərçivəsində məqbul hesab edirik. Hesabat ilində palata tərəfindən monitorinq fəaliyyətinin genişləndirilməsi, verilən təkliflərin izlənməsinin artırılması yaxşı haldır. Ümumiyyətlə, hər il nəzarət tədbirləri zamanı aşkar edilən nöqsanların təkrarlanmaması üçün verilən bütün təkliflərin izlənməsini vacib hesab edirik. Bunun üçün müəyyən maarifləndirici alətlərdən də istifadə edilməsini vacib sayırıq.

Hesabatda 2023-cü ildə aparılan 31 uyğunluq auditindən 27-də büdcə qanunvericiliyinin pozulması, yenə 27-də dövlət satınalmaları qaydalarının pozulması hallarına rast gəlinməsi göstərilmişdir. Ümumiyyətlə, pozuntu hallarının

say olaraq çox olması bu sahədə ixtisaslı kadrların daha çox hazırlanmasını və elektronlaşmanın tətbiqinin sürətlənməsini günümüzün vacib tələbinə çevirmişdir. Qeyd etmək istəyərdim ki, son zamanlar bu istiqamətdə qanunvericilikdə edilən dəyişikliklər nəzarət mexanizmlərinin innovativ həllər üzərində qurulmasının dövlət siyasəti olduğunu göstərməkdədir. Bununla yanaşı, hesabatda göstərildiyi kimi, biz də dövlət orqanlarında daxili nəzarət mühitinin gücləndirilməsini, dövlət vəsaitinin proqnozlaşdırılması prosesinin təkmilləşdirilməsini, xərclərin düzgün rəsmiləşdirilməsi prosesinin gücləndirilməsini vacib sayırıq. Eyni zamanda, hesabatda göstərilən və dövlət orqanlarında tez-tez rast gəlinən nöqsanlar bizi bir daha qanunvericilik aktlarında təkmilləşmələr aparmağa, hökuməti isə qəbul etdiyi qayda və normativləri yeniləməyə sövq edir.

Hesabatda palatanın fəaliyyətində vətəndaşa yönəlik təkliflərin icrası ilə bağlı məlumatların dərc edilməsini yüksək qiymətləndiririk. Vətəndaşlara onlayn olaraq bu və ya digər sahədə və dövlət orqanında auditin aparılması ilə bağlı təşəbbüslə çıxış etmək imkanının yaradılmasını vacib hal hesab edirik. Bu addım həm də parlamentçilik ənənəsinin maliyyə nəzarəti alətləri ilə zənginləşməsi anlamına da gəlməkdədir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, yekun olaraq İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi təqdim edilən hesabatı etdiyiniz təklif və tövsiyələr nəzərə alınmaqla məqbul hesab edir. Deputat həmkarlarımı hesabatın qəbul olunmasına səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim, ətraflı məlumat verdiniz. İndi isə biz müzakirələrə keçirik. Bundan əvvəl 5 dəqiqəyə keçmək təklifi var idi. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Şərt deyil ki, elə 5 dəqiqənin hamısını danışasınız. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də təqdim olunan hesabatı dəstəkləyirəm. Kifayət qədər ətraflı, məzmunlu təqdimata görə də Vüqar müəllimə təşəkkür edirəm. Mən tematik olaraq hesabatla bağlı fikirlərimi və təkliflərimi təqdim etmək istərdim. Hesabatın strukturunun təkmilləşdirilməsi və ünvanlılığının artırılması praktik olaraq ondan xəbər verir ki, 2023-cü ildə Hesablama Palatası fəaliyyətinin keyfiyyətcə yeni mərhələsinə qədəm qoymağa nail ola bilib. Eyni zamanda, palatanın hesabatında keyfiyyət meyarlarından istifadə olunması, DİM-lər nəzərə alınmaqla həm təhlilin, həm də auditin aparılması 2023-cü ildə palata tərəfindən yeni yanaşmaların tətbiq edilməsindən xəbər verir.

Bütün bu müsbət məqamlarla yanaşı, bir sıra təkliflərimi təqdim etmək istərdim. Hesabatda da qeyd olunduğu kimi, palatanın qanunvericiliklə yanaşı, daha çox önəm verdiyi sənəd strateji plandır. Dəfələrlə müzakirə etdiyimiz kimi, daha məqsədəuyğun olardı ki, Hesablama Palatası tərəfindən illik fəaliyyət planı da internet səhifəsi vasitəsi ilə təqdim olunsun. Bu, palatanın şəffaflığı baxımından çox vacibdir.

Bir sıra ölkələrdə – həm postsovet, həm də postsosialist ölkələrində belə bir ənənə var. Qazaxıstanda illik fəaliyyət planı Qazaxıstan Hesablama Palatası tərəfindən təqdim olunur. Çexiyada da oxşar praktikadan istifadə olunub. O baxımdan daha məqsədəuyğun olardı ki, daha çox strateji və ya ümumi istiqamətləri olan strateji planla yanaşı, illik fəaliyyət planı da məhz palata tərəfindən internet vasitə-

silə təqdim olunsun ki, bu, əməliyyat planı ilə bağlı məlumatın daha öncədən əldə edilməsinə gətirib çıxara bilsin.

Əvvəlki illərdə də müzakirə edilən məsələlərdən biri preauditin aparılmasıdır. Hörmətli Vüqar müəllim qeyd etdi. “Ex-ante” yanaşması, əslində, preauditi əvəz edən bir mexanizm deyil. Lima Bəyannaməsinin 1977-ci ildə qəbul edilməsinə baxmayaraq, orada 6 dəfə preaudit sözündən istifadə olunub. Tövsiyə xarakterli olmasına baxmayaraq, preauditin tətbiq edilməsi, eyni zamanda, audit nəticələrinə, eləcə də dövlət qurumlarında şəffaflığın gücləndirilməsinə gətirib çıxara bilər. Çünki əvvəlki hesabatlarda da palatanın gəldiyi qənaət ondan ibarətdir ki, audit nəticələrində kənarlaşmalar var. 31 uyğunluq auditinin 27-də qanunvericiliyin pozulması hallarına rast gəlinib. Yəni bu o deməkdir ki, Hesablama Palatası tərəfindən həyata keçirilmiş 31 uyğunluq auditinin 87 faizində qanunvericilik hallarının pozulması qeydə alınıb. Bu da kifayət qədər ciddi rəqəmdir. Palata 2023-cü ildə 5 səmərəlilik auditi həyata keçirib. Onlardan yalnız 1-də nəticəliklə yanaşı, həm də qənaətlilik və səmərəlilik meyarlarından istifadə olunub.

Burada əsas məqamlardan biri məhz hər üç meyardan istifadə olunması, sayının artırılmasıdır. Digər məqam isə əhatə dairəsi ilə bağlıdır. Baxmayaraq ki, səmərəlilik auditinin sayında dəyişiklik yoxdur, amma səmərəlilik auditinin əhatə etdiyi dövriyyədə, əhatə dairəsində 5,3 dəfə azalma var. Yəni əgər əvvəlki ildə 1 milyard 118 milyon manat əhatə dairəsi olmuşdusa, bu rəqəm 211,8 milyon manata qədər azalıb. Bu o deməkdir ki, kəmiyyətlə yanaşı, keyfiyyət göstəricilərinə üstünlük verilməsi olduqca vacibdir. INTOSAI-ın əsas prinsiplərindən biri audit zamanı informasiya texnologiyası auditinin aparıl-

masıdır. Bu auditin tətbiqi olduqca vacibdir. Çünki bu, həm də səmərəliliyin artırılmasına imkan verə bilər.

Eyni zamanda, daha məqsədəuyğun olardı ki, audit öncəsi meyarların seçimi, elektron olaraq risk xəritəsinin tətbiq edilməsi və buna uyğun audit aparılacaq dövlət qurumlarının seçilməsi həyata keçirilsin. Mən təqdim olunan sənədi dəstəkləyirəm. Sənəd ondan xəbər verir ki, Hesablama Palatası 2023-cü ildə müəyyənləşdirilmiş hədəflərə nail ola bilib. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Korrupsiyaya qarşı mübarizədə parlament nəzarətinin ən fundamental, ən təsirli mexanizmlərindən biri Hesablama Palatasıdır. Bu baxımdan bu gün müzakirə etdiyimiz hesabatın nəticələri ciddi əhəmiyyət kəsb edir. Hesablama Palatası tərəfindən həyata keçirilmiş hədəfli, risk əsaslı və səmərəli nəzarət tədbirlərini bu sahədəki antikorrupsiya siyasətimizin uğurlarından hesab edirəm. Bu nəzarət tədbirləri əsasında hüquq mühafizə orqanlarının səmərəli fəaliyyəti isə diaqonal hesabatlılığın güclü indikatorudur. Ümumilikdə, korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlər də bizim uğurlarımızdandır. Təkmil qanunvericilik bazası, ixtisaslaşmış qurumların səmərəli fəaliyyəti, elektron hökumət infrastrukturu, “ASAN xidmət” modeli, vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıq bu sahədə əldə etdiyimiz nailiyyətlərdəndir. Əlbəttə, bu uğurlar bu sahədə mövcud olan güclü siyasi iradə ilə bağlıdır.

Korrupsiya elə bir fenomendir ki, iqtisadi inkişafından, dövlət idarəçiliyindən asılı olmayaraq bütün dünyada və bütün ölkələrdə mövcuddur. Qərb mediasının ikili

standartları insanlarda belə bir güman yaradır ki, Skandinaviya və Qərb ölkələrində korrupsiya yoxdur və ya çox aşağı səviyyədədir. Ancaq Avropa Parlamentindəki Yaşıllar Partiyasının araşdırmasına əsasən korrupsiya Avropa iqtisadiyyatına hər il 904 milyard avro zərər vurur. Misal üçün, araşdırmada korrupsiyanın Finlandiya iqtisadiyyatına vurduğu zərərin 3,9 milyard avro olduğu təxmin edilir. Bu isə Finlandiyanın ümumi daxili məhsulunun 2,5 faizidir. Bu rəqəm Fransaya münasibətdə daha çoxdur. Hər il korrupsiyanın Fransa iqtisadiyyatına 120 milyard avro zərər vurduğu hesablanır. Bu zərər Fransanın səhiyyə xidməti üçün ayırdığı büdcənin 40 faizindən çoxdur və bunlar kifayət qədər ciddi rəqəmlərdir. Bu rəqəmlər, əlbəttə, ilkin gümanlardır. Bu sahədə olan bütün neqativ hallar araşdırılarsa, bu rəqəmlərin daha çox olacağı təxmin edilir.

Qərb institutlarının sui-istifadə etdiyi digər alət isə "Beynəlxalq Şəffaflıq" Təşkilatının Korrupsiya Qavrama İndeksidir. Bu indeksin hazırlanması prosesi şəffaf deyil və metodologiyası da etibarlı deyil. İndeksin müəllifi İohan Qraf Lambsdorf, – Beynəlxalq Antikorrupsiya Akademiyasında mənim müəllimim olubdur, – 2009-cu ildə bu indeksdən imtina edib. Çünki indeksin hazırlanmasında bütün ölkələr üzrə bərabər və eyni sayda mənbədən istifadə edilmir. İkincisi, istifadə edilən mənbələrdən biri "Freedom House" Təşkilatıdır. Bu təşkilatın Azərbaycanla bağlı verdiyi rəyi qavrama indeksi üçün necə etibarlı mənbə hesab etmək olar? Üçüncü sui-istifadə edilən alət isə AŞPA timsalında Qərb institutlarıdır. Burada maraqlı məqam ondan ibarətdir ki, Azərbaycan Avropa Şurasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumu olan GRECO-nun və

çirkli pulların yuyulmasına qarşı ixtisaslaşmış qurumu olan MONEYVAL-ın 4 qiymətləndirmə raundunu uğurla bitiribdir. Ancaq AŞPA-nın və ya Avropa Şurasının ixtisaslaşmış qurumlarının Azərbaycanla bağlı rəylərinin nəzərə alınmaması ikili standartların və riyakarlığın nümunəsidir.

Bilirsiniz, bunları nə üçün xatırlatdım? Məqsəd həm Qərb institutlarının, həm də onların Azərbaycanda qeyri-qanuni, qeyri-leqal formada yaratdığı media qurumlarının Azərbaycan xalqında, ümumiyyətlə, dünya cəmiyyətində yaratmağa çalışdığı o saxta gümanları bir daha ifşa etməkdir. İstənilən halda bizim korrupsiyaya qarşı mübarizə siyasətimizin məqsədi kimə isə xoş gəlmək deyil. Azərbaycan Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə siyasətinin məqsədi, hədəfi Azərbaycan vətəndaşının rifahıdır. Onun məmurlar qarşısında qoyduğu hədəflər də aydındır. Hər bir vəzifəli şəxs siyasi idarəetməni təmsil edir. Həmin rəhbər şəxslərə siyasi etimadla yanaşı, böyük resurslar həvalə edilir. Ona görə vəzifəli şəxs fəaliyyətində həmişə dövlət maraqlarını şəxsi maraqlardan üstün tutmalı, vətəndaşlarla düzgün kommunikasiya modeli seçməli, onları narahat edən problemlərin həllinə nail olmalı və dövlət qurumlarına, siyasi idarəetməyə olan ictimai etimadı daha da gücləndirməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov.

**B.Məhərrəmov**. Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, əvvəlcə qeyd edim ki, Azərbaycanın ərazi bütövlüyünün tam bərqərar olunduğu, suverenliyinin tam bərpa olunduğu bir ilin yekunu barədə hesabatı Milli Məclisdə dinləmək, təbii ki, çox qürurvericidir. Hesabat kifayət qədər peşəkarlıqla hazırlanıb. Vüqar müəllimin də

məruzəsi kifayət qədər əhatəli və səmərəli informasiya yönümlü oldu.

Məlumdur ki, Azərbaycan çox çətin mürəkkəb bir dövrü arxada qoyub. Möhtərəm Prezident andiçmə mərasimində də ifadə etdiyi kimi, tamamilə yeni bir dövr başlanıb. Bu dövrdə isə Azərbaycan dövləti ölkə əhalisinin rifahının daha da yaxşılaşdırılması üçün sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçib. Son üç il yarıma qədər münaqişə vəziyyətində olmağımıza baxmayaraq, uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər birmənalı şəkildə deməyə əsas verir ki, Azərbaycanın iqtisadi suverenliyinin daha da möhkəmlənməsi fonunda artıq ölkəmizin müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsi qarşısında faktiki heç bir maneə qalmayıb. Xüsusən Böyük Qayıdış uğurla reallaşdıqdan və işğaldan azad edilmiş ərazilərin potensialının milli dövriyyəyə inteqrasiyası tam təmin olunduqdan sonra bu reallıqlar daha aydın formada üzə çıxacaq.

Sirr deyil ki, milli iqtisadiyyatlar qlobal sistemin tərkib hissəsi kimi, bir qayda olaraq, xarici mühitdən təsirlənə bilir. Əlbəttə, biz də bu prosesdən sığortalanmamışıq. Lakin möhtərəm Prezidentin iqtisadiyyatın şaxələndirilməsi siyasəti, güclü mərkəzləşdirilmiş idarəetmə sistemi bizə imkan verib ki, uzunmüddətli dövrdə daxili və xarici təsirlərə dayanıqlı iqtisadiyyat formalaşdıraq və bu dayanıqlığı gücləndirək.

Cənab İlham Əliyevin direktivləri əsasında iqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqinin genişləndirilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sisteminin və etikasının formalaşdırılması

nəticəsində əminliklə demək olar ki, Azərbaycan iqtisadiyyatının, o cümlədən maliyyə sisteminin xarici təsirlərə dayanıqlılığı tam təmin olunub. Eyni zamanda, siyasi və iqtisadi müstəqilliyimiz bizə imkan verir ki, yeni reallıqlara uyğun, büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdıraq.

Ümumiyyətlə, etiraf etməliyik ki, nə qədər güclü bazis formalaşsa da, ölkədə maliyyə intizamı birbaşa siyasi iradədən asılıdır. Bu gün Azərbaycanda hakim siyasi iradə bütün sahələrdə şəffaflaşmanın əsas zamini kimi çıxış edir və bütün tədbirlər görülüb ki, Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malik ali audit orqanı kimi fəaliyyətində heç bir qanunsuz müdaxiləyə yol vermədən bu istiqamətdə üzərinə düşən vəzifələri yerinə yetirsin. Bilirsiniz ki, palatanın kənar dövlət maliyyə nəzarətini təmin etmək məqsədi ilə dövlət xəzinədarlığı məlumatlarına birbaşa çıxış imkanı tam şəkildə təmin olunub. Bu, eyni zamanda, parlamentin nəzarət mexanizminin uğurlu realizəsidir. Həmçinin hüquq pozuntularına qarşı mübarizə sahəsində dövlət orqanları ilə uğurlu qarşılıqlı fəaliyyət təcrübəsi formalaşıb. Təsadüfi deyil ki, nəzarət tədbirləri nəticəsində hesabatda əksini tapan büdcəyə zərər, maliyyə pozuntuları və səmərəsiz xərclər meydana çıxarılıb.

Hesablama Palatasının ötən il üzrə hesabatını təhlil edərək bu gün əminliklə deyə bilərik ki, dövlət vəsaitindən və digər dövlət əmlakından qanunauyğun, məqsədyönlü və səmərəli istifadəyə dövlət nəzarəti mexanizmi çox uğurlu formada təmin olunub. Ali audit orqanı tərəfindən müstəqil dövlət nəzarəti qanunçuluq, müstəqillik, kollegiallıq, şəffaflıq, obyektivlik, ədalətlilik və peşəkarlıq prinsipləri əsasında həyata keçirilib.

Bütün bu imkanların fonunda mən iki təklif səslən-

dirmək istərdim. Birincisi. Hesablama Palatasının dövlət satınalmaları, dövlət investisiyaları, dövlət proqramlarına və layihələrinə ayrılmış vəsaitlərin istifadəsi, qrantların və maliyyə yardımlarının təyinatı üzrə və səmərəli istifadəsi istiqamətində nəzarətin daha da artırılması üçün palatanın vətəndaş cəmiyyəti institutları ilə işləyən çevik, operativ mexanizminin formalaşdırılması məqsədəuyğun olar. İkincisi. Prosesin təşəbbüskarı kimi bir az öncə Vüqar müəllim də dedi. Hesablama Palatasının "səmərəsiz xərclər" anlayışının dairəsinin konkretləşməsi və bu anlayışın konkret formada qanunvericiliyə daxil edilməsi, eyni zamanda, bu əməlin ictimai təhlükəlilik dərəcəsi ilə bağlı parlamentin aidiyyəti komitəsi ilə birgə müvafiq addımların atılması məqsədəmüvafiq olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, millət vəkilləri, mətbuat nümayəndələri. Mən Hesablama Palatasının 2023-cü il hesabatını yüksək qiymətləndirirəm. Kifayət qədər geniş dairəni əhatə edir. Xüsusilə Hesablama Palatasının son illərdə verdiyi təklif və rəylərin əksər hissəsinin hökumət tərəfindən qəbul edilməsi və icrası müsbət addımdır.

2023-cü ildə Hesablama Palatası 41 audit və 4 analitik fəaliyyət həyata keçirmiş və təxminən 42 faizi, mən deyərdim ki, ilk dəfə yoxlamalara cəlb edilmişdir. Yoxlamalar zamanı audit nəticəsində 600-dən çox müəssisə və təşkilat əhatə olunmuş, 15 milyard manata yaxın vəsait yoxlamadan keçmişdir. Ümumiyyətlə, Hesablama Palatasının yoxlamaları uyğunluq auditi və maliyyə auditi ilə birlikdə təxminən 15 milyard manat vəsait, uyğunluq auditi 5,7 milyard manat, maliyyə auditi 8 milyard manat vəsait təşkil etmişdir. Çox təəssüflər olsun ki, 31

uyğunluq auditindən 20-də dövlət satınalmalarında ciddi nöqsanlar aşkar edilmişdir. Ümumiyyətlə, 5 maliyyə auditində olan nöqsanlar da kifayət qədər genişdir. Burada məlumatların əks etdirilməməsi, aktivin uçota alınmaması və digər təhriflər vardır. Bu 2 audit nəticəsində təxminən 1,2 milyard manata yaxın vəsaitdə nöqsanlar aşkar olunmuşdur.

Səmərəlilik auditi. 5 səmərəlilik auditində 158 milyon manat səmərəsiz xərclər müəyyən edilmişdir. Bu da kifayət qədər böyük rəqəmdir. Analitik fəaliyyətdə aşkar edilən nöqsanlar: rüsumların vaxtında ödənilməməsi, böyük borcların yaranması, hesabatlılığın olmaması, proqnoz göstəricilərinin, – xanım sədr də qeyd etdi, – kifayət qədər düzgün hesablanmaması, alğı-satqı müqavilələrinin kifayət qədər düzgün aparılmaması.

Hesablama Palatasının gördüyü işləri yüksək qiymətləndirməklə bərabər, mən bir neçə təklif vermək istərdim. Belə ki, Hesablama Palatasının bütün hesabatlarında istər 2023-cü, istərsə də ondan əvvəlki illərdə ən çox ciddi nöqsan olan sahə satınalmalar və tender fəaliyyətidir. Satınalma sahəsində biz nə qədər mübarizə aparsaq da, qanunda dəyişikliklər etsək də, faktiki olaraq satınalmalarda çox ciddi problemlər mövcuddur.

İkinci ən ciddi məsələ mühasibat uçotu və hesabatlılıqdır. Biz "Mühasibat uçotu haqqında" Qanun qəbul etmişik. O vaxt bu qanunun müzakirəsində də kadrlarla əlaqədar çox ciddi problemlər var idi. Hesabatdan da, yoxlamalardan da görünür ki, "Mühasibat uçotu haqqında" Qanun müəssisələr, təşkilatlar tərəfindən faktiki olaraq düzgün yerinə yetirilmir. O qanun ətrafında yaranan problem kifayət qədər böyükdür və burada kadrların çatışmazlığı da görünür. Ona görə də bunlar hesabatlılıqda

çox ciddi problemlər yaradır.

Üçüncü ən ciddi məsələ yoxlamanın əhatə dairəsidir. Bayaq mən dedim, Tahir müəllim də qeyd etdi. Hesablama Palatası təxminən 15 milyard manata yaxın vəsaiti əhatə edir. Dövlət büdcəsi 36-37 milyard manata yaxındır. Yəni biz yoxlamada təxminən 40 faizə yaxın vəsaiti əhatə edirik, qalanını əhatə edə bilmirik. Hesablama Palatasında auditorların sayı kifayət qədər aşağıdır. Mən belə hesab edirəm ki, birincisi, Hesablama Palatası çalışıb auditorların sayını artırmalıdır, ikincisi, informasiya texnologiyaları sistemindən istifadə edərək bu sahəni daha da genişləndirməlidir.

Ümumilikdə, Hesablama Palatasının hesabatı kifayət qədər əhatəli hazırlanıb. Bu hesabatı müsbət hesab edirəm, səs verəcəyəm və millət vəkillərini də səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Mən də hesab edirəm ki, hesabata dair hər iki məruzə yüksək peşəkarlıqla təqdim olundu. Çünki sənəd özü obyektivdir, büdcənin xərclənməsi barədə parlament üzvlərində peşəkar rəy yaradır, sadədir, başadüşüləndir, infoqrafik datalarla, məlumat bazaları ilə təmin olunub və beynəlxalq standartları özündə gözləyir. Bu, çox önəmli bir məsələdir. Burada hörmətli Kamal müəllim çox haqlı olaraq bu məsələ ətrafında Azərbaycana xaricdən hücum edən dairələrin mövqelərinin nə qədər əsassız olduğunu və belə rəylərə niyə əsaslanmadığını qeyd etdi.

Palatanın tədbirləri də mediaya açıqdır və bu, yaxşı bir hadisədir ki, vətəndaşlar, Tahir müəllimin qeyd etdiyi kimi, gələcəkdə müxtəlif qurumlarda audit tədbirlərinin həyata keçirilməsinə imkan qazanırlar. Cəmiyyətlə əks-

əlaqə sistemi cənab Prezidentin qeyd etdiyi ictimai nəzarətin təmin olunması üçün də çox faydalıdır.

Biz Hesablama Palatasının yaradılmasının başlıca prinsipini xatırlayırıq. Bu, 2003–2004-cü illərə təsadüf edirdi. Parlamentin büdcənin xərclənməsi üzərində nəzarətinin həyata keçirilməsi. Başadüşüləndir ki, palatanın güclü olması, o fəaliyyətlərinin əhatəli, dərin strukturlu, obyektiv olması parlamentin nüfuzuna da təsir edir. Ona görə biz bu vəhdəti də başa düşürük. Milli Məclis yalnız bu vasitə ilə xərclər üzərindəki nəzarəti həyata keçirir.

Təəssüflər olsun, məsələn, qalib ordu üzərində Müdafiə Nazirliyində baş verən hadisələr sübut edir ki, problemlər hələ də var. Audit tədbirləri hətta 36 milyard manat vəsaitin hamısını əhatə etsə də, yenə də o nöqsanlar meydana çıxacaq.

Əlbəttə, ötən il Hesablama Palatası 562 milyon manatlıq maliyyə pozuntularını aşkara çıxardı. Burada vurğulandı, onun 103 milyon manatı bilavasitə büdcəyə vurulmuş zərərdir. Maliyyə pozuntularının da, əsasən, hansı sahələrdə olduğu burada qeyd edilibdir. Amma 22 vəzifə, büdcəyə rəy verilməsindən tutmuş hüquqpozmalara qarşı tədbirlərə qədər, demək olar, onların hamısı əhatə olunubdur.

Burada bildiyim qədər, ilk dəfədir, ilklər sırasında büdcədənkənar fondlarla bağlı qərar əksini tapıb. Biz onu alqışlayırıq. Bu il 46 audit tədbiri nəzərdə tutulub. Xatırladaq ki, hər bir nazirliyin, yaxud komitənin nəzdində, demək olar, belə fondlar yaradılıb. Əksəriyyətinin gəlirləri 25 faizlik məlum cərimələrdən formalaşır. Şəffaflıq və hesabatlılıq üçün vahid büdcə siyasətini həyata keçirməyə görə o sferada da audit tədbirlərinin həyata keçirilməsi çox vacib idi. Biz bilirik ki, onlar bəzən həmin sahədəki

xərcləri hesabatsız sayırlar. Düşünürəm ki, bu, artıq qeyri-mümkün olacaqdır.

Qarabağa Böyük Qayıdış proqramına yönələn 12 milyard manatlıq vəsaitin şəffaf xərclənməsi ətrafında da, təəssüflər olsun ki, sosial media məkanında geniş spekulyasiyalar mövcuddur. Mən bunların bir qismini tamamilə əsassız hesab edirəm. Bilavasitə palatanın bu sahədə audit tədbirlərini həyata keçirməsindən məlumatlıyam. Əminəm ki, biz gələn il, qismət olsa, inşallah, bu hesabatları dinləyərkən bu məsələləri dəyərləndirə biləcəyik.

Orada həyata keçirilən tədbirlər ilk başlanğıcda dövlət satınalmaları haqqında qanunvericiliyin hərfinə, ruhuna tam uyğun keçirilə bilməzdi. Ona görə ki, məsələn, Zod yatağında infrastruktur quruculuğundan, bütün sərhəd xətti boyu hərbi kontingentimizin dayanmasından tutmuş Laçın sərhəd məntəqəsinin, yəni buraxılış məntəqəsinin qurulmasına qədər. Bunlar anındaca, yəni hərbi təyinatlı görünməsə də, hərbi xarakterli, təhlükəsizlik mahiyyətli işlər idi. Amma onların bir mənbədən satınalma növündə xərclənməsi o demək deyil ki, onlar auditə cəlb olunmayacaq. Ona görə də "bu məsələ bəlli qurumlara verilir, yalnız özlərinə yaxın kampaniyalardır" və sair deyənlər bircə dəfə Qarabağa gedib tikinti-quruculuq işlərini yaxından izləsələr, bilərlər ki, orada inşaat sferasında, – elə sovet termini ilə inşaat batalyonu desək, daha uyğun olar, – çalışanlar fədakar insanlardır, qəhrəman insanlardır. Çünki sıfırdan vətən qururlar.

Düşünürəm ki, palatanın da bu sahədə apardığı audit tədbirləri investisiya layihələrinin üzərində o şəffaflıq tələblərini qoruyub saxlayacaq.

Cəmi 134 əməkdaşdan ibarət palatanın 36 milyardlıq büdcəni əhatə etməsi qeyri-mümkündür. Bəli, hörmətli

Vüqar müəllim  komitə iclasında...

**Sədrlik edən.** Sağ olun. Təkid edən var. Qüdrət müəllim, Etibar müəllim. Əgər icazə versəniz, indi Sadiq müəllimin çıxışıdır. Təkid edənlər var. Gəlin, belə edək, Sadiq müəllim danışır, Qüdrət müəllimdən, Etibar müəllimdən başqa, Razi müəllim də... Onda hamı danışacaq. Sadiq Qurbanov. Buyurun.

**S.Qurbanov.** Təşəkkür edirəm, dəyərli Sahibə xanım. Vüqar müəllim və palatanın bütün kollektivinə gözəl hesabat hazırladıqları üçün dərin təşəkkürümü bildirirəm.

Burada rəqəmlər səsləndi. Mən də çalışacağam, fikirlərimi daha qısa, tezislər şəklində çatdırım.

Birinci. Hesablama Palatası strateji idarəetmənin ən vacib olduğunu bu hesabatı vasitəsilə bizə çatdırmağı bacarıb. Hesabatda əvvəlki 2 ildə olduğu kimi, strateji planın icrası barədə məlumatlara rast gəlmək mümkündür. Biz həm fəaliyyətin göstəriciləri, həm də ona xərclənən vəsait barədə məlumatları görürük. Hesab edirəm ki, digər qurumlar da hesabatlarında buna oxşar yanaşma tətbiq etsələr, çox yaxşı olar.

İkinci. Hesabat boyu açıqlanan məlumatlar göstərir ki, Hesablama Palatası audit fəaliyyətində dayanıqlı inkişaf məqsədlərinə əhəmiyyətli yer verir. Bunu həm ilk dəfə olaraq keçirilən hökumət əsaslı dayanıqlı inkişaf məqsədlərinin qiymətləndirilməsindən, həm də dayanıqlı inkişaf məqsədləri ilə uzlaşmanın səmərəlilik auditləri zamanı diqqətdə saxlanılmasından görmək mümkündür. Vüqar müəllimin çıxışından da məlum oldu ki, burada dayanıqlı inkişaf məqsədlərinin əhatə olunduğu auditlər barədə materiallar beynəlxalq təşkilatların atlasında da dərc edilib. Dərc olunan bu siyahıda ətraf mühitlə bağlı indikatorlar da qiymətləndirilib. Bu da çox müsbət hal hesab  olunmalıdır.

Üçüncü. Hesablama Palatasının üzvlərinin təklifləri əsasında 2 yeni tədbir 2023-cü ilin iş planına əlavə edilmişdir. Hesab edirəm, bu istiqamətdə əməkdaşlıq daha da artırılmalıdır.

Dördüncü. Hesabatda daha bir maraqlı məqam bizim ölkənin ali audit orqanının başqa ölkələrə ekspert xidmətini göstərməsidir. Hesab edirəm, bu kimi fəaliyyətlər ölkəmizin beynəlxalq nüfuzunun artmasına xidmət edir. Bunu da alqışlayırıq.

Beşinci. Hesabata həm auditlər, həm də rəylər üzrə tövsiyələr daxil edilib. Eyni zamanda, göstərilir ki, bu tövsiyələrin hökumət tərəfindən nəzərə alınmasında müsbət meyillər var və hökumət tərəfindən bu meyillərin artması qarşılıqlı əməkdaşlığın nəticəsidir. Bu sahədə də müsbət addımları alqışlayırıq.

2023-cü ilin hesabatında görülmüş işlər çərçivəsində 2024-cü ildə görüləcək işlər barədə də məlumat verilmişdir ki, bu da təqdirəlayiq hadisədir. Bu təcrübənin növbəti ildə də davam etdirilməsi yaxşı olardı. Ölkənin inkişaf strategiyasında 5 milli prioritetdən birinin ətraf mühitlə bağlı olmasını, eləcə də 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsini nəzərə alıb Hesablama Palatasının bu mövzularda auditlərinin sayını artırmasını və bu barədə məlumatın 2024-cü ilin hesabatında olmasını da indidən tövsiyə edərdim.

Bildiyimiz kimi, cənab Prezidentimizin apardığı siyasətin ən önəmlilərindən biri bu gün bərpa olunan enerji ilə bağlıdır. Biz dünyada yeni enerji mənbələri ilə tanınırıq. Azərbaycanda görülən işlərlə bağlı təkliflərimdən biri ondan ibarətdir ki, bərpa olunan enerji sahəsində də auditlərin aparılmasını təşkil etsələr, yaxşı olar. Eyni zamanda, cənab Prezidentin apardığı bu siyasətin təşki-

latlar tərəfindən hansı səviyyədə yerinə yetirildiyi məlum olar, həmçinin stimullaşdırma tədbiri kimi işin xeyrinə olar. Bunların hamısını nəzərə alaraq hesabata müsbət yanaşıram, dəstəkləyirəm və deputat həmkarlarımı da dəvət edirəm ki, dəstəkləsinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən çoxluğa tabeyəm. Ona görə səsə qoyulmasını xahiş edirəm. Səs verəcəyəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən nəyə görə səsə qoymuram. 10 nəfərdən 4 nəfər təkid etdi. Ona görə düşünürəm ki, kim istəyir, çıxış etsin, kim istəmir, siyahıdan çıxsın.

Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hesablama Palatasının işini dəyərləndirirəm və Azərbaycan reallığında gördükləri işin miqyasına görə onlara təşəkkür edirəm.

Hesabat ilində 5 səmərəlilik auditi keçirilib. Elə çıxışımın məğzi səmərəlilik auditidir. İstəyirəm ki, Hesablama Palatası Dövlət Sosial Müdafiə Fondunda və Sosial Xidmətlər Agentliyində büdcə vəsaitinin idarə olunması üzrə səmərəlilik auditi keçirsin. İstəyirik ki, ünvanlı sosial yardımın verilməsində səmərəlilik, düzgün idarəetmə, vəsaitin təyinatı üzrə istifadə edilməməsi, büdcə vəsaitinin bank hesablarında istifadəsiz qalması, ilin sonunda vəsaitlərin akkreditiv hesablara yönəldilməsi araşdırılsın. Eyni mexanizmin Sosial Xidmətlər Agentliyinə də tətbiq edilməsini rica edirəm.

Bununla bərabər, vətəndaşlara normal maliyyə əsaslı sosial xidmətlərin göstərilməsində həm qanunvericilik, həm də məsuliyyətsizlik nəticəsində yaranan maneələrin

aşkara çıxarılmasını və ictimaiyyətə açıqlanmasını istəyirəm. Mənə belə gəlir ki, hər 2 qurum üzərinə düşən vəzifəni nəinki vicdanla yerinə yetirmir, həm də ciddi məsuliyyətsizlik və hesabatsızlıq görürəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Çıxış üçün imkan yaratdığınıza görə də öz minnətdarlığımı bildirirəm. Bu gün Azərbaycanın ciddiliyini itirmiş düşmənlərinə və ölkəmizin qarşılaşdığı çağırışlara ən layiqli cavabı güclü iqtisadiyyat, güclü dövlət qurmaqdır. Onun üçün dövlət vəsaitləri səmərəli istifadə olunmalıdır. Burada həm Milli Məclisin, həm də Hesablama Palatasının məsuliyyəti var.

Hesablama Palatasının hesabatı ilə tanış olduq, Vüqar müəllimin çıxışına diqqətlə qulaq asdıq. 31 uyğunluq auditi keçirilib. Büdcə qanunvericiliyinin pozulması ilə bağlı nöqsanlara 27 auditdə, büdcə vəsaitlərinin idarə edilməsi ilə bağlı nöqsanlara 23 auditdə, dövlət satınalmaları sahəsində nöqsanlara 27 auditdə rast gəlinib, əsaslı vəsait qoyuluşu üzrə nöqsanlar isə 13 auditdə müəyyən edilib. Ümumilikdə isə, maliyyə pozuntularının məbləği 562,5 milyon manat olub. Əslində, Hesablama Palatasının açıqladığı bu rəqəmlər göstərir ki, ölkədə, doğrudan da, maliyyə intizamı ilə bağlı vəziyyət çox acınacaqlıdır. Hesablama Palatasına minnətdaram ki, onlar Milli Məclisə real vəziyyət haqqında məlumat verirlər. Amma biz sonda Hesablama Palatasının verdiyi hesabatı qənaətbəxş sayacağıq və bununla da işimiz sanki bitmiş hesab olunacaq.

Bir müddət öncə mən mətbuatda rast gəlmişdim ki, Amerika Birləşmiş Ştatlarının tikdirdiyi bir məktəb bizim Təhsil Nazirliyinin tikdirdiyi məktəbdən üç dəfə ucuz başa

gəlib. Bu, Hesablama Palatasının üzvlərini də narahat etməlidir. “Hesablama Palatası haqqında” Qanunun 8.0.4-cü maddəsində qeyd olunur ki, kənar dövlət maliyyə nəzarəti obyektlərində aidiyyəti sahələrə Hesablama Palatası daxil olur, maliyyə nəzarətinin predmeti ilə əlaqədar digər tərəflərdən izahatlar və məlumatlar alır. Hesab edirəm, bu, yetərlidir ki, hansısa mərkəzi icra hakimiyyəti orqanı, dövlət orqanı nə isə sifariş edirsə və hansısa özəl şirkət bu işdə iştirak edirsə, həmin özəl şirkətin də fəaliyyəti yoxlanılsın. Hörmətli sədr, bunu yoxlamadan o nöqsanların miqyasını aşkara çıxarmaq mümkün deyil. Biz bilirik, əgər həmin özəl şirkətlər də yoxlanılsa, bəlli olacaq ki, dövlət orqanı bunların hesabına pul köçürəndən qısa müddət sonra hansısa hesablara həmin şirkətdən pullar ödənilir və həmin pulların böyük bir qismi böyük məbləğdə nağdlaşdırılır. Yəni o korrupsiya mexanizmini aşkara çıxarmasaq, doğrudan da, büdcə vəsaitlərindən səmərəli istifadəni təmin edə bilməyəcəyik. İndi hörmətli Vüqar müəllim desə ki, bizim buna səlahiyyətimiz yoxdur, qanunun bu maddəsi o cür başa düşülməməlidir, onda ən azından qanunda bu dəyişikliyi etməklə bağlı mütləq təklif verilməlidir. Qeyd etdiyim kimi, bu, 8.0.4-cü maddədə öz əksini tapıb. Amma biz təqdim olunan hesabatlarda heç vaxt bu kimi araşdırmaların aparılmasına rast gəlməmişik.

Bizdə Nazirlər Kabinetinin Milli Məclisə hesabat verməsi Konstitusiyada nəzərdə tutulmayıb. Konstitusiya qanununda Nazirlər Kabinetinə etimad məsələsinin həlli ilə bağlı hesabatın verilməsi nəzərdə tutulur. O da Konstitusiyanın əsas mətninə ziddir. Etimad məsələsi tamam başqa bir məsələdir. Yəni orada artıq etimadsızlıq göstərilirsə, hökumət istefaya göndərilməlidir və bizdə də

heç vaxt etimad məsələsi parlamentdə müzakirə olunmayıb. Etimad məsələləri o vaxt müzakirəyə çıxarılır ki, siyasi böhran yaranır, yaxud iqtisadiyyatda ciddi tənəzzül baş verir və sair. Bizim Konstitusiyanın 95.5-ci maddəsində qeyd olunur ki, Milli Məclis büdcəyə nəzarət edir. Amma biz büdcəyə nəzarət haqqında qanun qəbul etməmişik, büdcənin icrası haqqında qanun qəbul eləyirik. Büdcənin icrası ilə bağlı hökumət hesabat verir və biz də həmin hesabatdan sonra icra haqqında qərar qəbul edirik. Ona görə də hesab edirəm, büdcəyə nəzarət haqqında qanun qəbul olunmalıdır, orada mexanizmlər yaradılmalıdır. Büdcəyə nəzarət üzrə Milli Məclisin müvafiq komitəsi də yaradılmalıdır. Yəni Milli Məclis büdcə vəsaitlərindən səmərəli istifadəyə ciddi şəkildə nəzarət etməlidir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fatma Yıldırım. Buyurun.

**F.Yıldırım**. Sahibə xanım, çıxışa şərait yaratdığınız üçün Sizə təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət maliyyəsinin idarə edilməsi sahəsində həyata keçirilən islahatlar ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının reallaşmasına imkan verməklə müxtəlif istiqamətli problemlərin həllini təmin edib. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin cənab Prezident İlham Əliyev tərəfindən ötən 20 il ərzində uğurla davam etdirilməsi və islahatların müvəffəqiyyətlə reallaşdırılması nəticəsində Azərbaycan beynəlxalq birliyin etibarlı tərəfdaşına, regionun lider dövlətinə çevrilmiş, eyni zamanda, ölkəmizin siyasi imicinin və iqtisadi potensialının güclənməsi təmin edilmiş, bütün sahələrdə dayanıqlı və dinamik inkişafın əldə olunması üçün zəmin yaradılmışdır.

Müasir dünyada baş verən siyasi, iqtisadi proseslər, qlobal rəqabət meyillərinin hər gün sürətli şəkildə artan təzahürləri və geosiyasi çəkişmələr hər bir dövləti müəyyən olunmuş məqsədlərə nail olmaq üçün öz resurslarını səfərbər etməyə və bu resurslardan daha rasional istifadə etməyə sövq edir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş və Azərbaycan Respublikasının hər bir sahədə prioritetlərini əks etdirən strateji sənədlərin müvəffəqiyyətli icrası da maliyyə vəsaitlərindən daha səmərəli istifadəni tələb edir. Bu tələblər cənab Prezident tərəfindən dəfələrlə səsləndirilmiş və dövlət qurumlarının qarşısında bir vəzifə olaraq müəyyən edilmişdir. Dövlət başçısının maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqlar bu gün şəffaflığın və hesabatlılığın vacibliyini bir qədər də artırmışdır.

Hörmətli həmkarlar! Maliyyə nəzarəti orqanı olaraq Hesablama Palatası dövlət büdcəsinin icrasına nəzarəti yüksək səviyyədə həyata keçirir. Hesablama Palatası öz fəaliyyətini ildən-ilə təkmilləşdirir, müasir tələblər səviyyəsində qurur. Bunu palatanın 2023-cü ildəki fəaliyyəti ilə bağlı təqdim olunmuş hesabatından da aydın şəkildə görmək mümkündür. Deyə bilərəm ki, təqdim edilən hesabat çox əhatəli, sadə, aydın formatda hazırlanmışdır. Bu dəfə də Hesablama Palatası tərəfindən illik hesabatvermədə nəticə əsaslı büdcə modelindən istifadə edilmişdir. Belə ki, hesabatda Hesablama Palatasının 2021–2025-ci illər üzrə strateji planına uyğun olaraq, 2023-cü ildə planlaşdırılmış və icra edilmiş fəaliyyətlər müvafiq büdcə və nəticə göstəriciləri qeyd olunmaqla əks etdirilmişdir.

Hesabatda ən vacib məqamlardan biri palatanın nəzarət tədbirləri haqqında məlumatlardır. Göründüyü kimi, müxtəlif qurumlarda aparılmış nəzarət tədbirləri nəticə-

sində aşkarlanan nöqsanlar hesabatda əksini tapmış, dövlət büdcəsinin icrası zamanı baş verən neqativ hallar məhz Hesablama Palatasının auditi nəticəsində üzə çıxarılmışdır.

Hesabatda həmçinin palatanın fəaliyyətinin bütün istiqamətləri, o cümlədən beynəlxalq fəaliyyət, şəffaflığın təmin edilməsi, maliyyə təminatı, keyfiyyətə nəzarətlə bağlı məlumatlar, maliyyə hesabatlarının auditinin nəticələri və digər məsələlər geniş əksini tapır. Bütövlükdə, hesab edirəm ki, Hesablama Palatası əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də çox səmərəli fəaliyyət göstərmişdir.

Hörmətli həmkarlar! Mən Hesablama Palatasının 2023-cü ilə dair hesabatının qənaətbəxş olduğunu hesab edirəm. Bu sənədə səs verəcəyəm, həmkarlarımı da səs verməyə çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Sonuncu çıxış. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Hörmətli xanım sədr, söz verdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Ölkədə ən ciddi problemlərdən biri maliyyə intizamsızlığıdır. Hesablama Palatasının audit sferası artırılmasa, bu intizamsızlıq davam edəcək. 2023-cü ildə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti dövlət büdcəsindən vəsait alan 126 təşkilatda nəzarət tədbirləri həyata keçirib. 90 təşkilatda yoxlamalarda 586,9 milyon manat məbləğində artıq və əsassız ödənişlər, 131,9 milyon manat məbləğində gömrük ödənişlərinin az hesablandığı və nəticədə bu məbləğdə vəsaitin dövlət büdcəsinə az ödənildiyi aşkar edilib. Aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlamaların nəticəsinə dair tərtib edilmiş aktlar əlavələri ilə birlikdə aidiyyəti üzrə prokurorluq və hüquq

mühafizə orqanlarına göndərilib.

Maliyyə intizamının güclənməli olduğu bir vaxtda, əksinə, maliyyə pozuntularının, daha doğrusu, intizamsızlığının miqyası genişlənir. Bunun əsas səbəblərindən biri auditin sferasının məhdud olmasıdır. Hesablama Palatası ayrı-ayrı təşkilatların büdcələrinin icrasının auditini aparmaqla yanaşı, həm də yeni paradiqmalara uyğun tədqiqatlara üstünlük verir. Bu, hesabatdan da görünür. Bu ilin yanvar ayında biz palatanın dəstəyi ilə "Dövlət maliyyəsinin idarə edilməsi" adlı kitabın təqdimatında iştirak etdik. Mütəxəssislərin rəyinə görə, bu, həm də ali məktəb tələbələri üçün mükəmməl vəsaitdir.

Biz millət vəkilləri hökumətə, Hesablama Palatasına büdcəyə nəzarətlə bağlı təkliflər verməliyik. Bunun ümumi işlərin daha yaxşı görülməsi üçün faydalı olacağını düşünürəm. Eyni zamanda, bu, həm də büdcə vəsaitindən istifadə edənlərin məsuliyyətli, diqqətli olmasına səbəb olacaq. Biz niyə Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun büdcələrinin icrasını müzakirə etmirik? Biz niyə Dövlət İnvestisiya Proqramının icrasını müzakirə etmirik? Bizim, ümumiyyətlə, dövlət büdcəsi ilə bağlı səlahiyyətlərimizin həddi hara kimidir? Sərhədlər harada qapanır? Hesablama Palatasına sual vermək istərdim: nə üçün Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrasının auditini aparıb parlamentə təqdim etmirsiniz? Yaxud məktəb qrantlarına ayrılan milyonlarca manat vəsaitin auditi niyə aparılmır?

Bu yaxınlarda Nazirlər Kabinetinin hesabatına səs verdik. Nazirlər Kabinetinin hesabatından görürəm ki, dövlət proqramları ilə bağlı istədiyim materialları buradan tapa bilmirəm. Palata öz hesabatında yalnız yoxladıqlarını

təqdim edir. Bəs yoxlamadıqları? Mən düşünürəm ki, bunlar da hesabatda öz əksini tapmalıdır. Büdcənin icrası haqqında hesabatda bu məlumatların olması biz deputatlar üçün də çox vacibdir. Əks halda biz əsas suallara cavab tapmaqda çətinlik çəkəcəyik. Mən də Hesablama Palatasının hesabatına səs verəcəyəm. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, Siz söz istəyirsiniz? Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, mən çıxış edən bütün deputat həmkarlarıma təşəkkür edirəm. Amma bir məsələ ilə bağlı öz mövqeyimi bildirmək istəyərdim. Parlamentin dövlətin maliyyə auditi sənədləri ilə daha çox tanış olan bir komitəsi kimi biz deputat həmkarlarım tərəfindən müxtəlif sahələrlə bağlı irad və tənqidləri qəbul edirik, bəzilərini doğru sayırıq. Amma bir neçə dəfə demişəm ki, biz mütləq ifadələrlə səslənən tənqidləri qəbul etmirik. "Azərbaycanda dövlət maliyyə nəzarəti acınacaqlı vəziyyətdədir" kimi cümləni biz qəbul etmirik. Çünki hesab edirəm ki, bu, eyni zamanda, görülən bütün işləri ya görməməzlikdən, ya da üstündən xətt çəkməkdən ibarətdir. Məsələn, keçən il təkcə maliyyə auditi sayəsində tapılan pozuntuların ümumi aparılan maliyyə auditi həcminə nisbəti 9,7 faizdir. 2022-ci ildə bu nisbət 20,4 faiz olub. Biz bu nisbəti 20,4 faizdən 9,7 faizə qədər azaltmışıq. Bu o deməkdir ki, aparılan işlər nəticəsində Azərbaycanda maliyyə intizamı güclənir.

İkincisi. Mən çıxışımda da qeyd etdim, hörmətli Vüqar müəllim də qeyd etdi. İki və daha çox audit aparılan orqanlarda maliyyə intizamının güclənməsi göstərilir. Bu o deməkdir ki, aparılan tədbirlər öz səmərəsini verir,

Azərbaycanda nəzarət olunduqca maliyyə intizamı güclənir. Biz inanırıq ki, hər birimiz bu güclənmənin ildən-ilə şahidi olacağıq. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Tamamilə düzdür, burada “intizamsızlıq” sözü heç yerində deyildir. Vüqar müəllim, söz istəmişdiniz, mənə dedilər. Buyurun.

**V.Gülməmmədov.** Təşəkkür edirəm, Sahibə xanım. Bütün millət vəkillərinə dedikləri xoş sözlərə, irad və təkliflərinə görə təşəkkür edirəm. Bildirmək istəyirəm ki, bizim daha çox nöqsan və ya pozuntu tapmaq kimi bir amalımız yoxdur. Əksinə, biz hesab edirik ki, audit obyektlərinin iş keyfiyyətini artırması daha vacib bir məsələdir. Biz fəaliyyətimizi də bunun üzərində qururuq. Millət vəkillərinin 2024-cü ilin iş planı ilə bağlı verdikləri konkret təklifləri müzakirə edəcəyik. İş planına daxil edilməsi ilə bağlı, bilirsiniz ki, planlaşma aparılmalıdır. Qüdrət müəllimin təklifləri kifayət qədər ciddidir və müzakirə mövzusudur.

Mən bir daha minnətdarlığımı bildirirəm. Bütün millət vəkillərinə Hesablama Palatasının hesabatlarının stolüstü kitab olmasını tövsiyə edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, biz indi səsverməyə keçəcəyik. Çıxış edənlərin əksəriyyəti hesabat haqqında müsbət fikirlər söylədi. Mən də hesab edirəm ki, hesabat yüksək səviyyədə hazırlanıb. Odur ki, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Vüqar müəllim, biz Sizə təşəkkür edirik. Sizin hamınıza uğurlar arzulayırıq. Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz. Hamı razıdır? Bu məsələdə təkid eləyən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz işimizə davam edirik. Növbəti 6 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin 2-ci məsələsi "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərov çıxış edəcək. Buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı təklif olmadığından səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Hörmətli həmkarlar, bu məsələyə daha iki komitə baxıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi. Tahir müəllim, fikrinizi, rəyinizi bildirin, xahiş edirəm.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əmək və sosial siyasət komitəsi. Məlahət İbrahimqızı, xahiş edirəm, komitənin rəyini bildirin.

**M.İbrahimqızı**, *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, xanım sədr. Bizim də komitənin münasibəti, fikri müsbətdir. Səsə qoyulmasını həmkarlarımdan xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

3-cü məsələyə keçirik. "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məlumat üçün mən yenə də hörmətli Məlahət xanıma söz verirəm. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Təqdim olunan qanun layihəsi komitədə hər üç oxunuşda müzakirə olunmuşdur. Heç bir təklif, tənqid, irad yoxdur. Həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Məlahət xanım, çox sağ olun. Hicran xanım, layihəyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**H.Hüseynova**, *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, bizim də komitəmizdə bu layihəyə baxılıb. Münasibət müsbətdir, xahiş edirik, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanıma söz verirəm. Əminə Ağazadə. Buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hər hansı bir dəyişiklik olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə ancaq sizin komitənizdə baxılıb. Heç kimin sualı yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələyə keçirik. Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, sizin məsələnizdir. Xahiş edirəm, məlumat verin. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihələri ilə bağlı ikinci oxunuşdan sonra hər hansı bir təklif daxil olmamışdır. Mətnin olduğu kimi səsə qoyulmasını Sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Məlahət xanım, yenə də Sizdən xahiş edirəm, məlumat verin.

**M.İbrahimqızı**. Çox sağ olun, hörmətli xanım sədr. Bizim komitədə də bu qanun layihələri müzakirə olunmuşdur. Heç bir təklif yoxdur. Həmkarlarımdan xahiş edirəm ki, səs versinlər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, Mülki Məcəllədə və “İpoteka haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, yenə də xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun. Hörmətli xanım sədr, bu qanun layihəsində də hər hansı bir dəyişiklik yoxdur. Ona görə yenə mətni olduğu kimi səsə qoymağınızı Sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır və mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Buyurun, Nurlan müəllim.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsi səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməyi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Media haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli həmkarlar, yəqin, xatırlayırsınız, mən ötən iclasda da bildirmişdim ki, layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuşdur. Qanun layihəsinə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Layihəyə iki oxunuşda hər hansı əlavələr olmayıb. Təklif eləyirik ki, səsə qoyulsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, komitənin rəyini bildirin.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli sədr, komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| --- | --- |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 5 məsələmiz ikinci oxunuşda olan qanun layihələridir. İndi gündəliyin 8-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Buyurun, Ziyafət müəllim.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsinin mahiyyəti haqqında mən birinci oxunuşda geniş məlumat vermişdim. Birinci oxunuşdan sonra hörmətli həmkarlarım tərəfindən əlavə və dəyişikliklər təklif olunmamışdır. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Ziyafət müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 2 komitədə baxılmışdır. Birinci komitə Mədəniyyət komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin sədr müavini

hörmətli Ülviyyə xanım Həmzəyevaya söz vermək istəyirəm. Ülviyyə xanım, buyurun.

**Ü.Həmzəyeva,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsinə Mədəniyyət komitəsində baxılmışdır. Komitənin rəyi müsbətdir. Deputatlardan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Əli müəllim, Sizdən xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli.** Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə biz bu qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Ona görə də biz qanun layihəsinin səsvermə proseduruna keçəcəyik. Birinci, maddələr üzrə səs verməliyik. Bu qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə mən 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**A.Nağıyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsi ətraflı müzakirə edilmişdir. Eyni zamanda, əlavələrlə bağlı birinci oxunuşda həmkarlarım Elnur Allahverdiyev və Siyavuş Novruzov layihə ilə bağlı öz müsbət fikirlərini də bildirmişlər. Layihənin ikinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, Siz məlumat verəcəksiniz. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim də komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Sonra isə müzakirəyə keçəcəyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Müzakirəyə keçirik. Qüdrət müəllim yazılıb. Qüdrət Həsənquliyev, buyurun.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Mən bayaq Tahir müəllimə cavab vermədim. Amma onun etirazını da başa düşmədim. Əgər 37 auditdən 27-də büdcə qanunvericiliyinin pozulması aşkarlanıbsa, deyim ki, maliyyə intizamı yaxşı vəziyyətdədir? Bunu necə demək olar? 31-dən 27-də ciddi nöqsanlar aşkar olunub və yarım milyard manat oğurlanıb. Bunun 100 milyonu geri qaytarılıb, qalanları yox. Ona görə də, Tahir müəllim, etiraz edəndə də gərək ədalətli olmağa çalışasınız.

Hörmətli sədr, mən müzakirə olunan məsələ ilə bağlı qeyd etmək istəyirəm. Vaxtı ilə mən bir məsələ qaldırmışdım ki, Azərbaycanda bir çox normativ hüquqi aktlarda bəzən terminlər eyni mənada işlənmir. Bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 54.2-ci maddəsində qeyd olunur: "Normativ hüquqi aktda eyni terminlər bir mənada işlədilməli və vahid formaya malik olmalıdır". Mən o vaxt söylədim ki, bizdə bəzi yerlərdə əməkhaqqının ödənilməsi əməkhaqqı, yaxud dövlət məvacibi, bəzi hallarda isə vəzifə maaşı kimi qeyd olunur. O zaman hörmətli həmkarlarımızdan biri dediklərimə düzəliş etməyə çalışdı. Amma bu gün biz "Sosial sığorta haqqında" Qanunun 15-ci maddəsinə dəyişiklik edirik. Burada qeyd olunur ki, dövlət məvacibi istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın, qurumun müəyyən etdiyi qaydaya uyğun olaraq, ödənilən bütün növ ödənişlər.

"Dövlət qulluğu haqqında" Qanunun 22-ci maddəsində qeyd olunur ki, dövlət məvacibi vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən ibarətdir.

Yəni biz ona görə dövlət maaşını ayırırıq. Burada başqa ödənişlərdən də söhbət gedir. Hesab edirəm ki, bu, düzgün deyil. Ümumiyyətlə, "dövlət məvacibi" ifadəsi çıxarılmalıdır. Burada ilk növbədə əməkhaqqından söhbət getməlidir. Çünki bizim Konstitusiyanın 35-ci maddəsi "Əmək hüququ" adlanır. Orada qeyd olunur ki, vətəndaşlara əməyinə görə minimum əməkhaqqından az olmayan haqq ödənilir. "Əməkhaqqı" sözü.

Əmək Məcəlləsində də 154-cü maddə "Əməkhaqqı" adlanır. 157-ci maddədə də, – burada əlavə ödənişlərdən söhbət gedir, – qeyd olunur ki, əməkhaqqının tərkibinə aylıq tarif (vəzifə) maaşı, əlavələr və mükafatlar daxildir. 5-ci hissədə qeyd olunur ki, əməkhaqqına əlavə əmək şəraiti ilə əlaqədar əvəz ödəmək və ya həvəsləndirmək məqsədi ilə işçinin tarif (vəzifə) maaşına, əməkhaqqına müəyyən edilən əlavə ödəncdir. Yəni əlavə ödəncin özü əmək haqqına daxil olan bir məsələdir.

"Dövlət qulluğu haqqında" Qanunda "əməkhaqqı" terminindən istifadə olunmur. Orada söhbət dövlət məvacibindən gedir. Yeri gəlmişkən, "Deputat statusu haqqında" Qanunda qeyd olunur ki, deputatlar vəzifə maaşı və vəzifə maaşına əlavə alırlar. Burada da "əməkhaqqı" termini işlənməlidir. Onların ikisi birlikdə, onsuz da, əməkhaqqına daxildir. Bu, Hesablama Palatasının üzvlərinə də aiddir ki, vəzifə maaşı və əlavələr alırlar. Qeyd etmək istəyirəm ki, terminologiya məsələsinə diqqət yetirmək lazımdır. Burada da dövlət məvacibindən kənar ödənişdən söhbət gedirsə, mən demək istəyirəm ki, "Dövlət qulluğu haqqında" Qanunun 22-ci maddəsinə uyğun olaraq, bu ödənişin özü, onsuz da, dövlət məvacibinə daxildir. Hesab edirəm ki, biz bu məsələyə bir də diqqət yetirməliyik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə  qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 97
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələlərə keçirik. Hörmətli həmkarlar, qeyd edim ki, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu, 10-cu və 11-ci məsələlərdir. 10-cu məsələ "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 11-ci məsələ isə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, hörmətli həmkarlar, mən təklif edirəm ki, həmişə olduğu kimi, təqdimatları dinləyək, sonra isə digər prosedurlara keçək. Hər iki layihəyə Elm və təhsil komitəsində baxılıb. Bəxtiyar müəllim, bu, sizin məsələnizdir. Hörmətli həmkarlar, məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevə söz vermək istəyirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirə edilərkən deputat həmkarlarımızdan 12 nəfər çıxış etdi. Hamısı qanun layihələrini dəstəklədi. Eyni zamanda, təklif edilmişdi ki, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və şəhid ailəsi üzvlərinin 23 yaş məhdudiyyəti ilə bağlı məsələyə baxılsın. Bununla bağlı biz müzakirələr apardıq. Bu,

maliyyə yüklü məsələdir. Ona görə də bu məsələlər müzakirə olunmalı, maliyyə mənbələri müəyyənləşdirilməlidir və gələcəkdə bunlara baxıla bilər. Biz bununla bağlı məsələni komitədə ikinci oxunuşda müzakirə edərkən qanun layihəsini olduğu kimi qüvvədə saxlamışıq.

Bu qanun layihəsinə uyğun olaraq, digər qanun layihəsində 7 qanuna uyğunlaşdırma xarakterli dəyişikliklər təklif edilir. Bu dəyişikliklər də Milli Məclisin Elm və təhsil komitəsində ikinci oxunuşda tam dəstəklənibdir. Bu qanun layihələri plenar iclasa da olduğu kimi təqdim edilib. Əhalinin həssas təbəqəsinin vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə deputat həmkarlarımdan bu vacib qanun layihələrini dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə 3 komitədə də baxılıb. Biz onların rəylərini də bilməliyik. Əmək və sosial siyasət komitəsinin rəyini komitənin üzvü hörmətli Əziz müəllim Ələkbərov bizə təqdim edəcək. Buyurun, Əziz müəllim.

**Ə.Ələkbərov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, qanun layihələrinə komitəmizdə ikinci oxunuşda baxılmış, əlavə heç bir qeyd və təklif olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İnsan hüquqları komitəsinin rəyini bildirmək üçün, Zahid müəllim, buyurun.

**Z.Oruc.** Hörmətli sədr, sənədə komitədə müsbət rəy verilib. Təklif edirik ki, səsə qoyulsun.

**Sədrlik edən.** Hicran xanım, sizin komitənizdə – Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Buyurun.

**H.Hüseynova.** Hörmətli xanım sədr, bu qanun layihəsinə bizim komitədə də baxılıb. Rəyimiz müsbətdir, heç bir təklif yoxdur. Xahiş edirəm, səsə qoyulsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, ikinci oxunuşdur, gərək qanun layihəsini əsas kimi qəbul edək. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin. Xatırladım ki, 10-cu məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 11-ci məsələdə olan qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var. İkinci oxunuşdur. Əgər heç kim təkid etmirsə, səsə qoyacağam. Siyavuş müəllim. Bircə dəqiqə. Təkliflər...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, mən ona görə deyirəm. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Çox sağ olun, şərait yaratdınız. Bir neçə məsələ var ki, qeyd etməliyəm. Burada müharibə veteranları, onların ailə üzvləri ilə bağlı güzəştlər göstərilir. Azərbaycanın ərazi bütövlüyü, Konstitusiya quruluşu uğrunda vuruşan insanlar qeyd olunur. Əfqanıstan müharibəsində iştirak edən 6 mindən artıq insanımız var, onlardan 3 mini dünyasını dəyişib, 3 min insan yaşayır. Onlar beynəlxalq, belə deyək, beynəlmiləl borclarını yerinə yetiriblər. Onların hər birinin veteran vəsiqəsi var və 80 manat veteran müavinəti alırlar. Belə olan şəraitdə onların vəziyyəti necə olacaqdır? Biz Çernobılı nəzərdə tuturuq, amma Əfqanıstan burada qeyd olunmur. Hesab edirəm ki, Əfqanıstanda sülh yaratmaq üçün Azərbaycanın müstəqillik dövründə kifayət qədər silahlı qüvvələrinin nümayəndələri bu proseslərdə iştirak edibdir.

İkinci məsələ. Biz güzəştlərdən danışırıq. Hörmətli Sahibə xanım, başqa vacib bir güzəşt ortaya çıxıbdır. Deməli, 1-ci sinifə qəbulla bağlı bu insanların güzəştləri olacaqmı? Çünki bir yenilik çıxarıblar. Azərbaycan Konstitusiyasında göstərilir ki, təhsil icbaridir, məcburidir, yəni məcburi təhsil alınmalıdır. Lakin 1-ci sinifə gələn uşaqlara müsabiqə tətbiq edirlər. Hansı müsabiqə? Uşaq məktəbə gəlir ki, burada dərs öyrənsin, oxusun. Yaxşı, o, evdə oxuyacaqdısa, məktəbə niyə gətirirlər? Vaxtı ilə çar Aleksandr manifest qəbul etdi, camaatı evindən "dartıb" məktəbə gətirirdilər. İndi istəyirlər ki, insanlar məktəbə gəlməsinlər, evlərində otursunlar. Əgər məktəbəqədər

təhsil müəssisələrinin sayı, məsələn, Bakıda 25 faizdir, rayonlarda 10-15 faizi keçməyibsə, bu uşaq harada təhsil almalıdır?

Hindistanda İndira Qandiyə qədər belə bir qayda müəyyən etmişdilər ki, ancaq varlı uşaqları oxuya bilərdilər. Sonra bu qanunu bir az yüngülləşdirdilər ki, kasıblar da oxuya bilərlər, amma varlılarla kasıblar ayrı-ayrı məktəblərdə oxumalıdırlar.

Vətəndaş uşağını yaşadığı ərazidə yerləşən məktəbə gətirir, onu 1-ci sinifə qeydiyyatdan keçirir. Böyük bir "ansambl" düzəldib müsabiqə keçirirlər. Bu, nə müsabiqədir? Bu harada göstərilib, hansı qanunda yazılıb? O baxımdan da mən hesab edirəm ki, bu güzəştləri edək, lakin vətəndaşlarımızın övladlarına da oxumaq üçün şərait yaradaq, onları məktəbdən qovmayaq, məktəbə təhsil almağa, savad artırmağa gətirək. Hərə özündən bir qayda qəbul edib orta məktəbdə olan uşaqların oxumasına maneçilik törətməsin. 9-cu sinifə qədər təhsil vacibdir, məcburidir. Bu, Azərbaycan Respublikasının Konstitusiyasının tələbidir. Hər bir dövlət məmuru da bunu yerinə yetirməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş müəllim, əlinizi qaldırdınız, məni də çaşdırdınız. Elə bildim, təkid edirsiniz, qalanları isə çıxış etmək istəmirlər. Mən hamıya söz verəcəyəm. Xahiş edirəm, kimin təklifi varsa, elə təklifini desin. Çünki bu, ikinci oxunuşdur. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Mən, sadəcə, təklif vermək istəyirəm. Biz "Veteranlar haqqında" Qanunda dəyişikliklər edəcəyik. Bu qanunun 15-ci maddəsi "Dərman və müalicə vasitələri ilə təminat" adlanır. Yalnız İkinci Dünya müharibəsi iştirakçılarına

müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və məbləğdə dərman və müalicə vasitələri almaq üçün müavinət verilir. Onların çoxu artıq dünyasını dəyişib. Bəlkə də barmaqla sayılan qədər insan olub. Mən bilirəm ki, bütün veteranlar üçün bunu etməyə, ola bilsin, dövlətin imkanları yoxdur. Amma ən azından əlillik almasa da, 30 faizədək sağlamlığını itirmiş və müharibədə yaralanmış şəxslər üçün bu hüquq nəzərdə tutulmalıdır. Biz hər gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında o veteranları görürük. Əllərində resept deyirlər ki, dərman almağa imkanımız yoxdur. Adamın ürəyi ağrıyır. Ona görə təklif edirəm ki, bu barədə düşünək və 15-ci maddəni dəyişək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Vüqar Bayramov. Siz də dediniz ki, təklifiniz var. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, xanım sədr. Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, maddələr üzrə təkliflərimi təqdim etmək istərdim. Əvvəla, layihənin 14.8.1-1-ci maddəsində qeyd olunur ki, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların təhsil haqlarının dövlət tərəfindən ödənilməsi həyata keçirilir. Mən xüsusən də postsosialist ölkələrində olan təcrübəni nəzərə alaraq təklif etmək istərdim ki, bu maddədə diferensial yanaşma olsun. Çünki burada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar nəzərdə tutulur. Amma elə ailələr var ki, orada valideynin biri itirilib. Həmin ailələrə də diferensial olaraq belə güzəştlərdən istifadəyə imkan yaradılması məqsədəuyğun olardı. Bu, digər ölkələrdə var. Bu halda tam olaraq güzəştdən istifadə edilmir, məsələn, 50 faiz. Bu, bir sıra Mərkəzi və Şərqi Avropa ölkələrində tətbiq olunur ki, əgər uşaq bir valideynini itirirsə, o zaman 50

faiz güzəştdən istifadə edə bilir, qalan 50 faiz isə dövlət tərəfindən qarşılanır. Təklif edərdim ki, 14.8-1.1-ci maddədə buna baxılsın.

Digər təklifim 14.8-1.2-ci maddə ilə, yəni şəhid ailəsi üzvlərinin təhsil haqlarının ödənilməsi ilə bağlıdır. Azərbaycanda şəhid ailələrinə xüsusi diqqət və qayğı var. Cənab Prezident tərəfindən həyata keçirilən sosial siyasətin əsas hədəflərindən biri şəhid ailələrinin sosial təminatının daha da gücləndirilməsidir. Bu kontekstlə bağlı ilk dəfə hörmətli deputat həmkarım Etibar Əliyev mətbuatda çıxış etmişdir. Mən həmin təklifi dəstəkləyirəm. Təklif edərdim ki, bu maddədə orta məktəb və liseylər də nəzərə alınsın. Söhbət özəl orta məktəb və liseylərdən gedir. Əgər şəhid ailəsi üzvləri özəl orta məktəb və liseylərə qəbul olunarlarsa, o zaman həmin təhsil haqqının dövlət tərəfindən qarşılanması həyata keçirilə bilər.

14.8-1.4-cü maddədə məhz əmək qabiliyyətini 61–100 faiz itirən, 18 yaşınadək olan uşaqlarla bağlı təhsil haqqının dövlət tərəfindən ödənilməsi nəzərdə tutulur. Burada dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsil müəssisələri nəzərdə tutulur. Amma aparılan monitorinqlər göstərir ki, özəl orta məktəb və liseylərdə orqanizmin funksiyalarının 61–100 faiz itirilməsinə görə birinci və ikinci qrup əlilliyi olan uşaqlardır. Həmin uşaqların özəl orta məktəb və liseylərdə təhsil almalarında məhz maliyyə cəhətdən çətinliklər var. Bu da inklüzivlik baxımından arzu olunan deyil. Nəzərə alsaq ki, Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəflərindən biri də məhz inklüzivlikdir. Ona görə təklif edərdim, 14.8-1.4-cü maddəyə özəl orta məktəb və liseylər də əlavə olunsun ki, həmin orta məktəb və liseylərdə əlilliyi olan uşaqların

təhsil almasına imkan yaradılsın.

Nəhayət, 14.8.1-1.7-ci maddədə qeyd olunur ki, aylıq gəliri yaşayış minimumundan az olanlar məhz bu hüquqdan istifadə edirlər. Yaşayış minimumu 270 manatdır. Birinci qrup əlilliyə görə ödənilən minimum pensiya 280 manat, müavinət 270 manat, orta aylıq əməkhaqqı 345 manatdır. Düşünürəm ki, yaşayış minimumu ilə bağlı limitin aradan qaldırılması məqsədəuyğun olardı. Çünki bu limitin müəyyənləşdirilməsi nəticə etibarı ilə xeyli sayda vətəndaşın bu hüquqdan istifadə etməsinə imkan yaratmır.

Eyni zamanda, burada peşə təhsili nəzərdə tutulduğuna görə 20 yaş limitin müəyyənləşdirilməsini də məqsədəuyğun hesab etmirəm. Çünki son statistika göstərir ki, peşə təhsilindən istifadə edənlərin böyük bir qisminin yaşı 20-dən çoxdur. Xüsusən son illər yaşı nisbətən çox olan vətəndaşlarımız peşə təhsilindən istifadə edirlər. Ona görə təklif edərdim ki, 14.8-1.7-ci maddədən həm yaşayış minimumu, həm də yaşla bağlı tələb çıxarılsın. Bununla da imkan yaransın ki, daha çox vətəndaşımız məhz bu maddədə nəzərdə tutulan güzəştdən istifadə edə bilsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət xanım yazılıb. Məlahət xanım, bir dəqiqəniz var. Buyurun.

**M.İbrahimqızı**. Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Mən birinci oxunuşda da yazılmışdım. Təhsillə bağlı çox vacib bir problemi qaldırmaq istəyirəm. Azərbaycanda, xüsusilə də Bakıda kifayət qədər özəl məktəb var. Amma bu özəl məktəblərin hərəsi öz təhsil haqqını müəyyən edir. Bu, bu gün artıq kosmik rəqəmlərdir. Mən hörmətli Bəxtiyar müəllimdən xahiş edərdim ki, mümkündürsə, üçüncü oxunuşa qədər Bakıda, Azərbaycanda olan özəl təhsil müəssisələrində qiymətlərin

necə tənzimlənməsi bildirilsin. Hərəsi bir cür qiymət qoyub. Bu hansı meyarlarla, hansı standartlarla, hansı parametrlərlə müəyyənləşdirilir? Xahiş edərdim ki, bu haqda parlamentə, millət vəkillərinə məlumat versin. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov**. Çox sağ olun, Sahibə xanım. Mən dəyişiklikləri yüksək qiymətləndirirəm. Bu dəyişikliklər əhalinin istək və arzuları nəzərə alınmaqla həyata keçirilir. Bir neçə maddəyə təklifim var. Birinci. 14.8-1.3-cü maddədə qeyd olunur ki, "Müharibə veteranı" adı almış şəxslər dövlət vəsaiti hesabına təhsil alacaqlar. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri heyətinin beynəlxalq sülhməramlılar tərkibində iştirak etmiş hərbçilərinə də bunu şamil etmək lazımdır. Çünki bununla əlaqədar bizə kifayət qədər müraciətlər olunur.

İkinci ən ciddi məsələ. 14.8-1.4-cü maddədə verilmiş təklifdə orqanizminin funksiyalarının 61–100 faiz pozulmasına görə əlilliyi olan şəxslər üçün güzəştlər nəzərdə tutulub. 61–100 faiz elə bir rəqəmdir ki, burada faktiki olaraq çox zəif insanlar nəzərdə tutulur. Mən hesab edirəm ki, 31–61 faiz səviyyəsində əlilliyi olan insanlara da bu güzəştlər tətbiq olunmalıdır. Yəni bu da çox ciddi məsələdir.

Üçüncü məsələ. 14.8-1.6-cı maddə. Azad olunmuş, bərpa edilmiş ərazilərə əhalinin köçürülməsi prosesi gedir və yəqin ki, qayıtmaqdan imtina edən müəyyən qaçqın və köçkünlər də olacaq, bəlkə də var. Təklif edirəm ki, bu vəziyyətlər nəzərə alınmaqla təqdim olunan maddədə güzəştlərin kimə və necə şamil olunacağı barədə dəqiqləşmələr aparılsın. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. “Təhsil haqqında” Qanunda dəyişiklik barədə. 14.8-1-ci maddədə yazılır: “Sosial müdafiəyə xüsusi ehtiyacı olan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişsiz əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir”. 14.8-1.2-ci maddədə yazılır: “Dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvləri”. Dəyişikliyin əhatə dairəsi, mənim düşüncəmə görə, məhduddur. Bələdiyyə təhsil müəssisələri yaradılmayıb. Ölkədə özəl peşə təhsili məktəbi yoxdur. Cəmi 3 özəl orta ixtisas təhsili məktəbi mövcuddur. Bu baxımdan bu maddəyə özəl orta məktəblərin də aid edilməsini təklif edirəm. Deputat həmkarım Vüqar Bayramov da bu məsələni qaldırdı. Ona da təşəkkür edirəm. Bu, şəhid uşaqlarının haqqıdır. Azərbaycanda 31 özəl orta məktəb fəaliyyət göstərir. Bilirik ki, bu məktəblərin isə tam əksəriyyəti Bakı şəhərində yerləşir. Şəhid övladlarının sayı elə də çox olmamalıdır. Məsələn, seçildiyim Suraxanı rayonunda 68 şəhidimiz var, onların 15-i ailəli olub. Ancaq onların neçə uşağının məktəbyaşlı olduğu haqqında da məlumatımız yoxdur. Yəqin ki, bu istiqamətdə də müəyyən monitorinqlər aparılmalıdır.

Bir misal çəkim. Qaraçuxur sakini kapitan Hüseynov Orxan Bəhmən oğlu şəhid olan gün övladı dünyaya gəlib. Onun övladının məktəbə getməsinə hələ iki ildən çox vaxt var. Bəlkə bu müddətdə özəl məktəblər kontingentini artıracaq. Bütün bunlar deməyə əsas verir ki, özəl orta təhsil müəssisələri də şəhid övladlarını ödənişsiz oxutmalıdırlar. Bu, dövlət büdcəsinə yük də deyil. Biz adətən çıxışlarımızda dövlət büdcəsindəki vəsaiti qoru-

mağa çalışırıq. Həqiqətən də, xərclər böyükdür, Qarabağımızda tikinti-quruculuq işləri aparılır. Özəl orta məktəblərin rəhbərlərinin qazancları hesabına bu vəsait qarşılansa, mənə belə gəlir ki, özəl orta məktəblərə və liseylərə bir o qədər ziyan dəyməz. Bunlar özlərindən fantastik təhsil haqları müəyyənləşdiriblər. Bunun 5-10 faizi də şəhid övladlarına xərclənsin. Mənə belə gəlir ki, bununla dünya dağılmaz. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun, Etibar müəllim. Hörmətli həmkarlar, çıxışlar bitdi. İndi biz qanun layihələrinin səsvermə proseduruna keçəcəyik. Mən qanun layihələrini maddələr üzrə səsə qoyacağam. 10-cu məsələdə, yəni "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.
İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

11-ci məsələyə keçirik. Bu qanun layihəsi 7 maddədən ibarətdir. Mən onların üçünü bir, dördünü isə bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə qalan dörd maddəyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 12-ci məsələyə keçirik. Bu məsələ "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır və məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov**, *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qanun layihəsi birinci oxunuşda qəbul olunduqdan sonra Səhiyyə komitəsinə əlavə təklif və iradlar daxil olmadığına görə,

xahiş edirəm, qanun layihəsini olduğu kimi səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 komitədə də baxılıb. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Mən komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Hörmətli xanım sədr, bu layihənin məqsədi, ümumiyyətlə, uyğunlaşdırma xarakterlidir. Digər qanunların "Dərman vasitələri haqqında" Qanuna uyğunlaşdırılmasıdır. Ona görə də komitəmizin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin üzvü hörmətli İlham Məmmədova söz verirəm. Buyurun, İlham müəllim. Bu dəfə komitənin rəyini Siz təqdim edirsiniz.

**İ.Məmmədov**, *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Məsələ bizim komitədə də müzakirə edilmişdir. Heç bir dəyişiklik olmadığı üçün məsələnin səsə qoyulması təklif olunmuşdur.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, özünüz təqdim edirsiniz. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Qanun layihəsinə bizim komitənin də rəyi müsbətdir.

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən qanun layihəsini əvvəlcə əsas kimi səsə qoyacağam. Buyurun, münasibət bildirin. Xatırladıram, ikinci oxunuşdur.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Qanun layihəsinin səsverməsinə keçirik. Maddələr üzrə münasibət bildirməliyik. 14 maddədən ibarətdir. Mən onları yeddi-yeddi səsə qoyacağam. Xahiş edirəm, birinci 7 maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə son 7 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə iki məsələ qalır və hər ikisi birinci oxunuşda olan qanun layihələridir. Odur ki, xahiş edirəm, müzakirə zamanı çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız.

Biz indi gündəliyin 13-cü məsələsinə keçirik. Bu məsələ "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələ ilə bağlı mən komitənin üzvü Nurlan müəllimə söz verirəm. Nurlan Həsənov, buyurun.

**N.Həsənov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qanun layihəsinin məqsədi ədliyyə orqanları əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Belə ki, xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan və kirayə ödənişi edən ədliyyə orqanları əməkdaşlarına və onların ailə üzvlərinə kirayə ödənişi üçün pul kompensasiyasının ödənilməsi nəzərdə tutulur. Məlumat üçün bildirim ki, əvvəllər bu qayda yalnız penitensiar xidmətin əməkdaşları üçün qüvvədə idi, lakin artıq bu, bütün ədliyyə orqanları əməkdaşlarına da şamil ediləcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Çıxış etmək istəyən yoxdur. Mən qanun

layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, sonuncu məsələ 14-cü məsələdir. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında qanun layihəsi müzakirəyə təqdim edilir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən yenə də Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Əgər dünya təcrübəsinə baxsaq, görə bilərik ki, bir çox inkişaf etmiş ölkələr, məsələn, Danimarka, Almaniya, Çin Xalq Respublikası və bir sıra digər ölkələr açıq dənizdə süni torpaq sahəsinin yaradılması təcrübəsindən istifadə edirlər. Məhz bu baxımdan cənab Prezident tərəfindən belə bir qanun layihəsinin təqdim olunması iqtisadi inkişafımızın indiki mərhələsində mütərəqqi hadisədir. Süni torpaq sahəsi anlayışı, əslində, qoşulduğumuz beynəlxalq sənədlərdə, o cümlədən “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”nda mövcuddur. Bu gün isə bunun tətbiqinin xüsusiyyətləri ilə

bağlı, ayrıca bir qanunun qəbulu ilə bağlı zərurət yaranmışdır. Təqdim olunan layihə Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinə, eyni zamanda, 2019-cu ildən etibarən qoşulduğumuz “Xəzər dənizinin hüquqi statusu haqqında” Konvensiyaya uyğundur. Azərbaycan Xəzər dənizinin ona mənsub olan hissəsində süni adaların yaradılması, istismarı və istifadəsinə icazə vermək və tənzimləmək üzrə müstəsna hüquqa malikdir.

İlk öncə qeyd etmək lazımdır ki, qanun layihəsi mükəmməl hazırlanmışdır və sadə struktura malikdir. Layihəni sadə, daha rahat şəkildə anlaşılan etmək üçün onu dörd hissəyə bölmək olar. İlk öncə süni torpaq sahəsinin anlayışı və bununla bağlı ümumi tələblər. Məhz burada xüsusi olaraq vurğulamaq lazımdır ki, bu layihə ilə bağlı olan bir çox məsələlər, məsələn, anlayışlar, ümumi tələblər layihədə istinad olunan digər qanunvericilik aktları ilə tənzimlənir. Məsələn, Şəhərsalma və Tikinti Məcəlləsi, Torpaq Məcəlləsi, Su Məcəlləsi, “Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında” Qanun, “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Qanun və adını sadalamadığım digər qanunlarla.

Layihədə ikinci qrup məsələlər müraciətlərə baxılma prosedurlarıdır. Su fondu torpaq sahəsinin ayrılması ilə bağlı hüquqi şəxslər, fiziki şəxslər, o cümlədən dövlət orqanları müraciət edə bilərlər. Müraciətlərin uyğunluğu, orada hər hansı çatışmazlığın olub-olmaması Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən yoxlanılır. Yekun qərar isə Nazirlər Kabineti tərəfindən verilir. İcazə alınması üçün iki ilədək vaxt nəzərdə tutulur. Eyni zamanda, tikintinin başa çatdırılması üçün 3 ildən az olmayan və 6 ildən çox olmayan müddət müəyyənləşdirilib. Burada biz bir məsələni nəzərə almalıyıq ki, bu

müddətlər, əslində, məhdudlaşdırıcı xarakter daşıyır və məqsəd investorlar üçün gələcəkdə, eyni zamanda, müəyyən məsuliyyət hissi yaratmaqdan ibarətdir.

Üçüncü hissədə mülkiyyət məsələləri tənzimlənir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, layihədə süni torpaq sahəsinin yarandığı andan dövlət mülkiyyəti hesab edildiyi göstərilir. Bildiyimiz kimi, milli qanunvericiliyimizə əsasən və investisiyanın növündən asılı olmayaraq sahilboyu torpaqlar dövlət mülkiyyətidir. O ki qaldı burada hər hansı tikinti işlərinin aparılmasına, orada tikintinin xüsusiyyətləri fərqlidir. Belə ki, sahilboyu zolağın tənzimlənməsi, sahilboyu zolaqda hər hansı tikinti aparılması, bildiyiniz kimi, qadağandır və Torpaq Məcəlləsində bu qadağalar aydın şəkildə qeyd olunmuşdur. Lakin nəzərə almaq lazımdır ki, sahilboyu zolağa bitişik süni torpaq sahəsi yaradılan zaman sahilə müdaxilə olunması qaçılmazdır və buna görə də Torpaq Məcəlləsində bununla bağlı nəzərdə tutulan qadağa istisna edilir. Bu, layihənin 8.4.3-cü maddəsində də qeyd olunmuşdur.

Nəhayət, 4-cü məsələ. Qanun layihəsində qanunun tələblərinə əməl edilməməsinə görə məsuliyyət müəyyənləşdirilir. Həmkarlardan dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Nurlan müəllim, ətraflı məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 ayrı komitədə də baxılıb. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, həmkarım hörmətli Nurlan müəllim layihə barədə kifayət qədər ətraflı məlumat verdi. Mən də ona təşəkkürümü bildirirəm.

Qısa qeyd etmək istərdim ki, layihənin çox böyük

iqtisadi əhəmiyyəti var. Çünki məhz bütün dünyada dəniz akvatoriyasında tökmə torpaq üzərində obyektlərin, o cümlədən yaşayış binalarının inşası böyük marağa səbəb olur, turizmin və investorların cəlb olunması baxımından da kifayət qədər əhəmiyyət daşıyır. Azərbaycanda hər üç istiqamət dövlətin iqtisadi siyasətinin mühüm istiqamətləridir. Qeyri-neft sektorunun inkişafı baxımından da bu istiqamətdə çox böyük imkanlar mövcuddur. Ona görə də qanun layihəsinin qəbul edilməsini və Azərbaycanın qeyri-neft sektorunda yeni inkişafın artım mənbəyinin biri kimi qəbul olunmasını həmkarlarımdan xahiş etmək istəyərdim. Əsas məqsəd sırf iqtisadi inkişafa yeni istiqamətdən böyük dəstək verməkdir. Bizim rəyimiz müsbətdir, həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Aqrar siyasət komitəsində də baxılıb. Mən hörmətli Tahir Rzayevə söz vermək istəyirəm. Buyurun, Tahir müəllim.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, qanun layihəsi komitədə müzakirə olunub, rəy müsbətdir. Xahiş edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun. Buna Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Hörmətli Sadiq müəllim, buyurun.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox hörmətli həmkarlar, qanun layihəsi komitəmizdə çox geniş müzakirə olundu. Qonaqlar da dəvət edilmişdi. Belə təklif olundu ki, olduğu kimi plenar iclasda müzakirəyə çıxarılsın. Biz layihəyə müsbət rəy verməklə Azərbaycanımızın inkişafına töhfə vermiş olacağıq. Xahiş edirəm, dəstəkləyəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, müzakirəyə yazılanlar var.

Təklif var, səsə qoyulsun. Əgər kim təkid etmirsə, xahiş edirəm, siyahıdan çıxsın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Asim müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Komitədə danışıb. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasımız aprelin 23-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Adil Əliyev.** Bu gün Prezident İlham Əliyev tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə ilə əlaqədar aparılan tədbirlər çərcivəsində korrupsiya, dövlət əmlakının mənimsənilməsi və digər neqativ hallar minimuma endirilmişdir. Nəticədə maliyyə intizamı gücləndirilmiş, şəffaflıq artmış və dövlət vəsaitlərindən istifadədə səmərəlilik yüksəldilməklə əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Dövlət başçısı tərəfindən aparılmış bu siyasi xəttin əsas hədəfi vətəndaşların rifahının yaxşılaşdırılmasına və məmnunluqlarının təmin edilməsinə hesablanmışdır.

Tarixən parlamentin yaranması funksiyalarından məhz biri də büdcənin monitorinqini izləmək və pulların hara xərclənməsinə nəzarət etməkdir. Bu məqsədlə Hesablama Palatası üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Təqdim edilmiş hesabatdan görünür ki, hesabat dövründə palata tərəfindən audit və analitik fəaliyyətləri də daxil olmaqla kənar dövlət maliyyə nəzarəti tədbirləri uğurla həyata keçirilib.

Palata tərəfindən mərkəzi və yerli icra hakimiyyətlərində həyata keçirilən yoxlamaların nəticələri barədə məlumatları dövri olaraq əldə edirik. Bu fəaliyyət nəticəsində təyinatı üzrə xərclənməyən pulların büdcəyə bərpa olunması, nöqsanlara yol vermiş şəxslərin cəzalandırılması sahəsində atılan addımları yüksək qiymətləndirirəm.

Əlavə olaraq bildirməliyəm ki, Müşahidə Şurasının üzvü olduğum Dövlət Neft Fondunun büdcə layihələrinin hazırlanmasında və təhlilində Hesablama Palatası aktiv rol oynayır və mütəmadi olaraq nəticələri birgə təhlil edirik. Əminəm ki, palata bundan sonra da qeyd olunan

xüsusatlara əməl etməklə bu sahədə aparılan dövlət siyasətinə öz töhfəsini verəcəkdir.

**Malik Həsənov.** Bu gün bizim müzakirəmizə təqdim olunan Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabatı ilə tanışlıq zamanı aydın olur ki, palata səlahiyyət hüdudlarına və funksiyalarına daxil olan istiqamətlər üzrə işi müvəffəqiyyətlə icra etmişdir. Bildiyimiz kimi, bu qurumun fəaliyyət istiqamətinin ən vaciblərindən biri nəzarət tədbirlərinin həyata keçirilməsi ilə bağlıdır. Hesablama Palatası dövlət büdcəsini müzakirə və təsdiq edən Milli Məclisin orqanı olaraq büdcənin icrasına nəzarət məsələlərinə cavabdehdir. Bu istiqamətdə hər ötən il fəaliyyətində səmərəliliyin artırılmasını müşahidə edirik. Bu, bu gün müzakirə etdiyimiz təqdimatda öz əksini tapır.

2023-cü ildə palata əməliyyat planının 91,7 faizini icra edib və həyata keçirilən nəzarət tədbirlərinin sayı 45 olmuşdur. Burada diqqəti cəlb edən mühüm hallardan biri də keçirilən o tədbirlərdən ikisinin məhz Milli Məclis deputatlarının qaldırdıqları problemlər əsasında olmasıdır. Bu da hörmətli həmkarlarımızın qanunvericilər olaraq büdcə vəsaitindən səmərəli istifadəyə, qeyri-şəffaf davranmanın aradan qaldırılmasına verdikləri önəmin təzahürü hesab oluna bilər.

Göründüyü kimi, ötən hesabat ilində aparılan nəzarət tədbirlərinin əhatə dairəsinin maliyyə həcmi 18,2 milyard manat təşkil etmişdir. Bu da kifayət qədər yüklü maliyyə vəsaitidir və demək olar ki, bir neçə il öncəki ümumölkə büdcəsi qədərdir.

Hesabatla tanışlıq zamanı onun həm strukturunda, həm də palatanın illik iş planında aparılan yoxlamaların və monitorinqlərin hədəf və məzmununda yeni yanaşmaların ortaya qoyulduğunu müşahidə edirik. Bu da təbiidir. Çün-

ki ölkəmizin iqtisadi qüdrəti və büdcə gəlirləri artdıqca onlardan səmərəli istifadə məsələsi daim başlıca vəzifələrdən biri kimi təzahür edir.

Aparılan maliyyə yoxlamaları nəticəsində kifayət qədər yüklü miqdarda maliyyə vəsaiti bərpa olunmuş, daha ciddi qanun pozuntuları ilə əlaqədar işlər müvafiq hüquq mühafizə orqanlarına göndərilmişdir.

Təbiidir ki, son illər ərzində möhtərəm cənab Prezidentimizin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində idarəçilikdə şəffaflığın artırılması, insan amilinin rolunun azaldılması istiqamətində xeyli mexanizmlər işlənilmişdir və hazırda onlar uğurla icra olunur. Bu gün iqtisadi qüdrətimizin gücləndiyi bir dönəmdə artan maliyyə vəsaitlərindən səmərəli şəkildə istifadə günümüzün başlıca prioritetlərindəndir.

Vətən torpaqlarının işğaldan azad olunmasından sonra həyata keçirilən iqtisadi layihələrin miqyası xeyli genişlənmiş və demək olar ki, işğal dönəmindəki dövrlə müqayisədə dəfələrlə artmışdır. Hesab edirəm ki, aparılan quruculuq işlərinə  və bu istiqamətdə sərf olunan dövlət vəsaitinin səmərəli istifadəsinə də proqramlı nəzarət mexanizmi tətbiq olunmalıdır. Təklif edərdim ki, belə nəzarət tədbirləri həyata keçirilən zaman təkcə  ayrı-ayrı nazirliklər, komitələr və qurumlar üzrə  ayrılıqda deyil, quruculuq işlərinin aparıldığı region üzrə bütövlükdə kompleks nəzarət mexanizmləri tətbiq edilsin. Yaxşı olardı ki, Hesablama Palatası təftişedici, maliyyə yoxlamalarını icra edən orqan olmaqla yanaşı, hələ icrasına başlanmamış layihələrin səmərəliliyini müxtəlif indikatorlar vasitəsi ilə araşdırsın, gələcəkdə ola biləcək qanun pozuntularının qarşısını almaq məqsədi ilə işlək mexanizmlər təklif etsin, onların tətbiqini nəzarətdə saxlasın.

Təqdim olunan hesabat kifayət qədər əhatəlidir, hesabat dövründə Hesablama Palatasının fəaliyyətinə dair aydın təsəvvürlərin formalaşmasına imkan verir. Ən əsası da ötənilki hesabatlarla müqayisədə yeni yanaşmaların ortaya qoyulması ilə diqqəti cəlb edir. Bu da palatanın fəaliyyətinin daha da təkmilləşdirilərək dünyada mövcud olan yeni çağırışlara uyğun şəkildə qurulduğunu söyləməyimizə imkan verir.

**Tamam Cəfərova.** Hazırda dünyada çətin və mürəkkəb proseslər, siyasi, iqtisadi kataklizmlər yüksələn xətlə inkişaf edir. Dünyanın bir çox yerində davam edən açıq müharibələr və örtülü münaqişələr getdikcə daha da alovlanır. Təəssüflər olsun ki, beynəlxalq münasibətlər sistemində dialoq mədəniyyəti get-gedə tənəzzülə uğrayır. Dövlətlər dialoq və qarşılıqlı anlaşma imkanlarından sürətlə imtina edir. Belə mürəkkəb bir şəraitdə Rusiya sülhməramlı kontingentinin vaxtından əvvəl Qarabağdan çıxarılması haqqında iki dövlətin ali rəhbərliyi arasında qərarın verilməsi mühüm tarixi hadisədir.

Hamıya məlumdur ki, istər daxili, istərsə də xarici auditoriyada Rusiya sülhməramlı kontingentinin Qarabağda yerləşməsi ilə əlaqədar ciddi narahatlıqlar mövcud idi. Psevdosiyasətçilər mütəmadi olaraq sülhməramlıların Qarabağda yerləşməsini Rusiyanın Azərbaycanda əbədi olaraq hərbi mövcudiyyəti kimi təqdim edir, rəsmi Bakının sülhməramlı kontingenti ərazilərimizdən çıxarmaq iqtidarında olmayacağını vurğulayaraq xalqın içərisində xof, qorxu, dövlətə inamsızlıq toxumu səpməyə çalışırdılar. Lakin sülhməramlı kontingentin bəyanatda qeyd olunan vaxtdan daha tez çıxarılması haqqında qərarın verilməsi bütün bu cəfəng fikirləri bir daha iflasa uğratdı. Bu tarixi qərar, eyni zamanda, Azərbaycan və

Rusiya arasında tarixən mövcud olmuş qonşuluq, müttəfiqlik münasibətlərinin ötən dövr ərzində necə inkişaf etdiyini və qarşılıqlı etimad mühitinin nə qədər dərinləşdiyini göstərən real faktdır. Eyni zamanda, 2022-ci il 22 fevral tarixli Moskva bəyannaməsinə uyğun olaraq, ikitərəfli münasibətlərimizdə təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi istiqamətində atılan addımlar regionda sülh və əmin-amanlığın bərqərar olması baxımından olduqca önəmlidir. Qeyd etmək lazımdır ki, Rusiya dünyanın ayrı bir qütbüdür və onunla bərabərhüquqlu münasibətlər qurmaq Azərbaycan üçün olduqca vacib əhəmiyyət kəsb edir.

Bütün bunların fonunda bir məqamı xüsusilə qeyd etmək lazımdır. Rusiya sülhməramlı kontingentinin vaxtından əvvəl ərazilərimizdən çıxarılması haqqında qərarın verilməsi Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin xarici siyasət sahəsində qazandığı növbəti uğurudur. Cənab Prezident zəfərləri ilə Cənubi Qafqazda yeni reallıqlar yaratmış güclü hərbi-siyasi strateq kimi bir daha bütün dünyaya – dosta, düşmənə, hər kəsə göstərdi ki, o nəyi necə və nə vaxt etmək lazımdır, yaxşı bilir. O, sübut etdi ki, onun sözü imzası qədər keçərlidir. Bu gün əminliklə deyə bilərik ki, biz çox xoşbəxt xalqıq. Biz cənab İlham Əliyevin reallığa çevirdiyi bu unudulmaz tarixin şahidləriyik.

* * *

Hesablama Palatasının 2023-cü ildəki fəaliyyəti haqqında hesabatını yüksək qiymətləndirirəm. Hesabat kifayət qədər peşəkar səviyyədə, mövcud qanunvericilik aktlarına uyğun formada tərtib edilib.

Hesablama Palatasının hesabat dövrü ərzində auditin hər 3 növü üzrə keçirilmiş nəzarət tədbirləri haqqında məlumatları yüksək dəqiqlik və faktlarla, təfsilatlı şəkildə hesabatda öz əksini tapmışdır. Əlbəttə, ali audit orqanının hər il vaxtında və qanunvericiliyin tələblərinə uyğun olaraq, hesabatlılıq öhdəliyini yerinə yetirməsi olduqca vacibdir. Təqdim olunan hesabatda hesabatlılığın illər ərzində keyfiyyəti, eləcə də palatanın fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsi görünür.

Hesabat ilində uyğunluq auditi üzrə 31, maliyyə auditi üzrə 5, səmərəlilik auditi üzrə 5 audit həyata keçirilmişdir. Hesabatda 2023-cü ilin iş planına əsasən keçirilən uyğunluq auditlərinin hər birində dövlət satınalmalarının araşdırılması və 27 auditdə bu sahəni tənzimləyən hüquqi aktların pozulması hallarına, nöqsanlara rast gəlindiyi göstərilmişdir. Bu nöqsanların ötən illərdə də təkrarlanması və hələ də davam etməsi ciddi narahatlıq doğurur. Hesab edirəm ki, bu sahəyə nəzarətin xüsusi olaraq gücləndirilməsinə ehtiyac var. Bu, dövlət büdcəsinə qənaət edilməsi və səmərəli xərclənməsi baxımından vacib əhəmiyyət kəsb edir.

Maliyyə auditləri üzrə nəticələrlə tanış olarkən 2021-ci ildə 11, 2022-ci ildə 9, hesabat ilində isə 5 auditin həyata keçirildiyini görürük. Maliyyə auditlərinin sayının ildən-ilə azalmasına baxmayaraq, əhatə dairəsində artım qeydə alınması, düşünürəm ki, təqdirəlayiq haldır.

Bunlarla yanaşı, səmərəlilik auditinin keçirilməsi ilə əlaqədar fikirlərimi bir qədər genişləndirmək istəyirəm. 2023-cü ildə 5 səmərəlilik auditi keçirilmişdir. Auditin sayının ötən illə eyni olmasına baxmayaraq, auditin bu növünün keçirilməsində yeniliklərin tətbiq edilməsi və əhatə etdiyi mövzuların genişlənmiş olması, xüsusilə ilk dəfə olaraq hökumət əsaslı Dayanıqlı İnkişaf Məqsəd-

lərinin qiymətləndirilməsinin həyata keçirilməsi, investisiya fəaliyyətinin, eləcə də rəqəmsallaşma istiqamətinin səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi diqqət çəkən mühüm məqamlardandır. Azərbaycan Respublikasında uşaqların yoluxucu xəstəliklərə qarşı immunoprofilaktikası sahəsində həyata keçirilən fəaliyyətin auditinin nəticələri deməyə əsas verir ki, səhiyyə sahəsində səmərəlilik auditinin əhatə dairəsinin genişləndirilməsi olduqca vacibdir. Bununla yanaşı, düşünürəm ki, auditin bu növündə yoxlamaların sayının artırılmasına, xüsusilə də təhsil, mədəniyyət, idman sahələrində səmərəlilik auditinin daha çox müəssisəni əhatə etməsinə ciddi ehtiyac var.

Ümumilikdə, Hesablama Palatasının təqdim etdiyi hesabat kifayət qədər dolğun, ətraflı və dəqiq faktlar əsasında tərtib edilib. Hesablama Palatasının öz fəaliyyətində beynəlxalq təcrübəni tətbiq etməsini, müxtəlif beynəlxalq təşkilatlarla mövcud əlaqələrinin daha da genişləndirilməsi istiqamətində fəaliyyətinin təqdirəlayiq hal olduğunu vurğulamaq istərdim. 2024-cü ildə Hesablama Palatasının qarşıda duran vəzifələrinin içərisində “Milli iqlim fəaliyyəti, ətraf mühitin mühafizəsi” mövzusunda auditlərinin keçirilməsi və COP29 tədbirində ali audit orqanlarının iştirakının təşkilinin nəzərdə tutulması xüsusilə əhəmiyyətlidir.

# MÜNDƏRİCAT

19 aprel 2024-cü il ............................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................. 112

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

67-ci cild

19 aprel 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  6,5. Sifariş 58. Tiraj 150.